QARABAĞ AZƏRBAYCANDIR!



**Pyotr Luçinski: "Heydər Əliyev sarsılmaz iradəli insan idi"**

4

# Böyük Qayıdış, böyük quruculuq!

2



Səs

№ 232 (6673) 17 dekabr 2022-ci il. Qiymәti 60 qәpik

# Avropa İttifaqı içindən çürüyür

11



*Qərb dünyası, Qərbin təsis etdiyi qurum və institutlar, qeyri-hökumət təşkilatları, media və digər təsisatlar "Qoca qitə"yə üzv olan dövlətləri bizə elə şəkildə və formada təbliğ ediblər ki, guya burada yaşayan insanlar digər ölkələrdə addımbaşı rast gəlinən rüşvət, korrupsiya, "kölgə kabinet", "qara iqtisadiyyat", mavi və sarılardan, qırmızılardan xalidirlər, ümumiyyətlə bu ifadələr...*

## Azərbaycan konseptual yeniliklərin müəllifidir



7

## FAHRETTİN ALTUN: "Türkiyə qlobal gücdür"




9

## "Hər birimiz ekoloji terrora qarşı öz haqq səsimizi ucaltmalıyıq"



6



## USAİD-in ermənipərəst rəhbəri yenə Azərbaycanı ittiham etdi




13

## Yeni il hədiyyələri doğurdanmı təhlükəlidir?



13

## "Valideyn bunları etməklə uşağın şüur inkişafını zədələyir"

*"Elə valideynlər var ki, övladlarından giley edib, psixoloqa yönləndirirlər. Məsələnin sonunda isə özləri günahkar çıxırlar. Bunun da səbəbi valideynlərin övladlarına laqeyd yanaşmasıdır".*



16

# Böyük Qayıdış, böyük quruculuq!

## İlham Əliyev: "Müharibə artıq tarixdə qaldı Bu gün biz gələcəyi yaradırıq, öz əllərimizlə yaradırıq "



Cəmi iki həftədən sonra yola salacağımız, artıq tarixə qovuşacaq 2022-ci il ölkəmiz üçün bir sıra uğurlu məqamlarla, əldə olunan tarixi nailiyyətlərlə zəngin oldu. Xüsusilə işğaldan azad olunan ərazilərimizdə görülən möhtəşəm quruculuq işləri 2022-ci ilin ölkəmizin inkişaf tarixində mühüm yer tutduğunu söyləməyə tam əsas verir. 44 günlük Vətən müharibəsində qazanılan tarixi qələbə nəticəsində Azərbaycanın işğal altında olan torpaqları erməni təcavüzkarlarından təmizləndi və tezliklə bu torpaqlarda yeni bir həyat başlandı. 44 günlük Vətən müharibəsində Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın şanlı Ordusu 30 ilə yaxın həsrətə son qoydu və həmin zaman kəsiyində hər cəbhədən aldığımız qələbə xəbərləri insanlarda böyük sevinc hissi yaşadırdı və hər gün eşitdiyimiz qələbə sorağı bizi Zəfərə doğru aparırdı. Dövlət başçısının torpaqlarımızın işğalçılardan azad olunması ilə bağlı xalqa yeni qələbə sevincini yaşatması müharibənin tezliklə bitəcəyindən xəbər verirdi. Əlbəttə ki, qələbə əzmi ilə vuruşan əsgər və zabitlərimiz yalnız irəliyə doğru addımlayırdılar. Ölümün gözünə dik baxmağı bacaran vətən oğulları bir qələbədən yeni bir qələbəyə doğru irəliləyirdilər. Bu güc inamdan irəli gəlirdi. Bu güc ordunun gücü idi. Bu güc haqq və ədalətdən aşılanan güc idi. İşğaldan azad edilmiş şəhərlər, kəndlər, qəsəbələr və bu ərazilərdəki mədəni abidələr bərpa olunur, abadlıq-quruculuq işləri aparılır. İrimiqyaslı layihələrin reallaşması tezliklə bu ərazilərin müasir şəhərə, mərkəzə çevriləcəyinə əminlik yaradır. Bu gün işğaldan azad olunan digər ərazilərimdə genişmiqyaslı abadlıq-quruculuq işlərinə start verilib. "Azad edilmiş bütün torpaqlarda həyat bərpa olunacaq, vətəndaşlar öz doğma ocaqlarına qayıdacaqlar", - deyə Prezident bildirmişdir. Dövlət başçısının işğaldan azad olunan ərazilərə hər səfəri və yeni təməllərin qoyulması, abadlıq və quruculuq işləri ilə yaxından tanış olması, yerində tapşırıq və göstərişlərin verilməsi tezliklə bu ərazilərin sakinlərinin öz ata-baba yurdlarına qayıdacaqlarından xəbər verir. Cəmi 8 ay ərzində Füzuli Beynəlxalq Hava Limanı inşa edildi. "Bəlkə də dünya praktikasında, dünya tarixində bu qısa müddət ərzində, minalanmış ərazidə beynəlxalq hava limanları tikilməmişdir", - deyə Prezident bildirib.



### "BU GÜN BİZ GƏLƏCƏYİ YARADIRIQ, ÖZ ƏLLƏRİMİZLƏ YARADIRIQ"

Bəli, Cənab Prezidentin bildirdiyi kimi, "Müharibə artıq tarixdə qaldı Bu gün biz gələcəyi yaradırıq, öz əllərimizlə yaradırıq. Əminəm ki, bütün planlarımız, - bu günə qədər bəyan edilən bütün hədəflər necə təmin edilmişdisə, - növbəti dövr üçün nəzərdə tutulmuş hədəflər də təmin ediləcək. Biz bu hədəflərə çatacağıq, ölkəmizi gücləndirəcəyik, ordumuzu yenə də gücləndirəcəyik və Azərbaycan xalqının təhlükəsiz həyatını təmin edəcəyik. Əlbəttə ki, 30 il ərzində əziyyət içində, o cümlədən mənəvi əzab içində yaşamış köçkünləri maksimum qısa müddət ərzində öz doğma torpaqlarına qaytaracağıq".

Böyük Qaydışın ilk karvanı bir neçə ay bundan yol aldı. Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdış Zəngilan rayonunda "Ağıllı kənd" konsepsiyası əsasında yenidən salınmış Ağalı kəndinə sakinlərin köçürülməsi ilə başlanıldı. Qısa bir zamanda reallaşan infrastruktur layihələr, abadlıq və quruculuq işləri Azərbaycanın iqtisadi gücünü bir daha ortaya qoymuş oldu. Zəngilan rayonun Ağalı kəndində sürətlə görülən işlər bu şəhərin sakinlərini tezliklə qoynuna alacağından xəbər verirdi. Qısa bir zamanda abadlıq-quruculuq işlərinə başlanıldı. Cənab Prezidentin bildirdiyi kimi, biz azad edilmiş bütün torpaqları bərpa edəcəyik və Zəngilan rayonu bu sahədə birinci rayondur ki, artıq keçmiş məcburi köçkünlər öz yurdlarına qayıdırlar.

### BÖYÜK QAYIDIŞIN AYAQ SƏSLƏRİNƏ AĞALI QUCAQ AÇDI

Bildiyimiz kimi, birinci "Ağıllı kənd" pilot layihəsi Zəngilanın 1-ci, 2-ci, 3-cü Ağalı kəndlərini əhatə etmiş oldu. Birinci pilot layihə Zəngilanın Ağalı kəndində həyata keçirildi. Yenidən qurulan Ağalı kəndi müasir tələblərə uyğun olaraq quruldu. "Ağalı kəndinin timsalında hər bir Azərbaycan vətəndaşı və ümumiyyətlə, hər bir insan bizim planlarımızı görə bilər", - deyən Prezident insanlara, oraya qayıdacaq insanlara rahat şəraitin yaradılıcağını bildirib: "Hər kəs görəcək ki, işlərimiz planlı və sistemli şəkildə aparılacaq, bütün amillər nəzərə alınacaq - təhlükəsizlik, rahatlıq, rifah, məşğulluq və gələcək inkişaf". Belə də oldu. Xatırladaq ki, Birinci, İkinci, Üçüncü Ağalı kəndləri 2020-ci ilin oktyabrın 28-də işğalçılardan azad edildi. Altı aydan sonra Ağalıda yeni kəndin təməl daşı qoyuldu. Xüsusi olaraq vurğulayaq ki, Prezident İlham Əliyev Zəngilanda Beynəlxalq Hava Limanının da təməlini qoydu. Şübhəsiz ki, bu hava limanı bölgənin inkişafında mühüm rol oynayacaq. Ağalı kəndinə əhalinin köçürülməsi Böyük Qayıdışın ilk sorağı idi. İşğala qədər bu inzibati ərazi 3 kəndi birləşdirib. Həmin dövrdə Birinci Ağalıda 40 ailə (154 nəfər), İkinci Ağalıda 60 ailə (245 nəfər), Üçüncü Ağalıda isə 161 ailə (675 nəfər) yaşayıb. Hazırda bu kəndlərdən olan ailələrin ümumi sayı 352-dir (1504 nəfər).



Artıq Ağalı kəndinə birinci mərhələdə 41 ailə köçürüldü.

Sentyabrın 7-də isə Azərbaycanın işğaldan azad edilmiş Zəngilan rayonunun Ağalı kəndinə əhalinin köçürülməsinin ikinci mərhələsinə start verildi. Keçmiş məcburi köçkünlərin 12 ailədən (63 nəfər) ibarət növbəti qrupu Abşeron rayonu Masazır qəsəbəsində yerləşən "Zəngilan şəhərciyindən" Daxili İşlər Nazirliyinin əməkdaşlarının müşayiəti ilə öz doğma yurd-yuvalarına yola salındı. Böyük Qayıdışa uyğun olaraq ikinci mərhələdə daha 25 ailənin (125 nəfər) köçürülməsi planlaşdırılır. On iki ailədən ibarət birinci köç karvanı sentyabrın 7-də doğma yurdlarına yola düşüblər. Digər 13 ailə (62 nəfər) isə sentyabrın 10-da Ağalı kəndinə köçürüləcək.

### MÜASİR AĞALI KƏNDİ

Otuz ilə yaxın yurd həsrəti ilə yaşayan ailələr yeni salınmış və ən müasir infrastrukturu olan kənddə onlara verilmiş evlərdə daimi məskunlaşacaqlar. Köçürülən ailələr, əsasən, müvəqqəti məskunlaşma yerlərində ən ağır şəraitdə yaşayanlar arasından seçilib və bu zaman köçürülmə üçün təqdim edilən yaşayış sahələrinin həcmi nəzərə alınıb. Köçürülənlər arasında Birinci, İkinci və Üçüncü Ağalı kəndlərinin sakinləri var. Mövcud qanunvericiliyə əsasən, məcburi köçkünlər daimi yaşayış yerlərinə qayıtdıqdan sonra üç il müddətində dövlətin onlar üçün müəyyən etdiyi sosial müdafiə tədbirlərindən yararlana biləcəklər. Ümumilikdə "ağıllı kənd" konsepsiyasına uyğun qurulan Ağalı kəndinə birinci mərhələdə köçürülən 41 ailə (201 nəfər) hər cür şəraitlə təmin olunub.Ağalı kəndində "Azərpoçt" MMC-nin rayon şöbəsi, "ASAN xidmət" mərkəzi, DOST mərkəzi, Kiçik və Orta Biznesin İnkişafı Mərkəzi fəaliyyət göstərir ki, kənd sakinlərinin dövlət xidmətlərinə rahat çıxışı təmin edilir. Ağalı kənd meydanında "Kapital Bank"ın Zəngilan filialı, kənd təsərrüfatı təyinatlı laboratoriyalar, baytarlıq və bitki mühafizə idarələri və digər ictimai iaşə obyektləri fəaliyyət göstərir. Göründüyü kimi, "Ağıllı kənd"də müasirlik təkcə qurulan infrastrukturla məhdudlaşmır, burada təhsilə yeni yanaşmanın tətbiqi də mühüm rol oynayır. 360 şagird yerlik ikimərtəbəli məktəb binası və birmərtəbəli 60 yerlik uşaq bağçası onların ixtiyarındadır. Ağalı kəndində 200 evdən ibarət gözəl kənd salınıb. Bu gün artıq müharibədən qısa bir zaman keçmiş olsa da ərazilərdə abadlıq-quruculuq işləri uğurla reallaşıb. Ermənilərin xarabalığa çevirdiyi məkanlar yenidən qurulur və əvvəlki zamanına qayıdır və tezliklə yolunu həsrətlə gözlədiyi əzəli sakinlərini Ağalı kimi, Şuşa, Kəlbəcək, Laçın və digər ərazilər sevgi ilə qarşılayacaq. Qarşıda gələn 2023-cü il Qarabağın quruculuq və inkişafı üçün daha böyük uğurlarımıza şahid olacaq. Qarabağ daha böyük inkişafa və quruculuğa imza atacaq. Zəfərlər bizimdir, gələcək bizimdir!.

**Zümrüd BAYRAMOVA**

## Rəsmi xronika

Prezident İlham Əliyev "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında ailə, qadın və uşaq məsələləri üzrə siyasət sahəsində Əməkdaşlıq Protokolu ilə bağlı Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında toxumçuluq sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Fərman imzalayıb.

# Heydər Əliyev: zaman, şəxsiyyət və əbədiyyət...

***Azərbaycan xalqı ümummilli liderimiz Heydər Əliyevi hər zaman böyük ehtiramla yad edir, Ulu Öndərin əziz xatirəsini daim uca tutur. 19 ildir ki, cismən aramızda olmasa da, Ulu Öndərimizin müəyyənləşdirdiyi siyasət daim ölkəmizə və xalqımıza işıqlı yol göstərir. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarında dönə-dönə vurğulayıb ki, xalq yalnız sevdiklərini yadda saxlayır və yaşadır: "Heydər Əliyev misilsiz xidmətlərinə görə hər zaman Vətəni, xalqı üçün əziz olaraq qalacaq. Çünki bu dahi insan xalqımız qarşısındakı xidmətləri ilə hələ sağlığında ikən tarixin yaddaşında əbədiləşmiş böyük azərbaycanlıdır."Mənim həyat amalım yalnız bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mədəni inkişafına xidmət olub", - deyən Heydər Əliyev istər sovet dönəmində, istərsə də müstəqillik illərində qüdrəti və zəkası, böyük müdrikliyi və uzaqgörənliyi ilə Azərbaycanı dünya ölkələri sırasında layiqli yerə çıxarıb.***



Bəli, bugünün uğurları yaxın keçmişə dolğun və obyektiv qiymət vermək imkanı yaradır. Bu həqiqət işığında qəlbi daim vətən eşqilə döyünən böyük dühaların, fenomen şəxsiyyətlərin milli dövlətçilik qarşısındakı xidmətləri də aydın görünür. Müstəqil respublikamızın hazırda qazandığı böyük nailiyyətlər də məhz Azərbaycan xalqının Ümummilli Lideri, dünya şöhrətli ictimai-siyasi xadim Heydər Əliyevin adı ilə bağlıdır.

## HEYDƏR ƏLİYEV EPOXASI DÖVRÜ - 1969-1982 VƏ 1993-2003-CÜ İLLƏR

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev ölkəmizin tarixində öz epoxasını yaratmış qüdrətli tarixi şəxsiyyətdir. Azərbaycan Respublikasına rəhbərlik etdiyi 1969-1982 və 1993-2003-cü illər çoxəsrlik Azərbaycan tarixinin Heydər Əliyev epoxası dövrüdür.Birinci mərhələni əhatə edən 1969-1982-ci illər Azərbaycan tarixinin qızıl dövrü hesab edilir. Bu tarixi mərhələdə Azərbaycan keçmiş Sovetlər İttifaqında geridə qalmış bir respublikadan inkişaf etmiş ölkə səviyyəsinə yüksəldilmişdir. Bir vaxtlar sovetlər birliyində ən geridə qalan respublika kimi tanınan Azərbaycan Ulu Öndərin rəhbərliyindən sonra keçmiş SSRİ-də qabaqcıllar sırasına qoşuldu. Sonradan Kremldə fəaliyyət göstərdiyi illərdə - 1982 1987-ci illərdə Siyasi Büronun üzvü olmaqla SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifəsinə yüksələndə də qəlbi daim xalqımızla birgə döyünmüşdür. O dövrdə ölkənin ən mühüm sahələrinə rəhbərlik məhz Ulu Öndərimizə etibar edilmişdir. Həmin dövrdə də Azərbaycanın inkişafını, əlaqələrinin möhkəmləndirilməsini, ərazi bütövlüyünün təmin olunmasını, milli kadrların yetişdirilməsini daim diqqət mərkəzində saxlayırdı.Ulu Öndər təkcə həmin dövrdə deyil, bütün həyatı boyu Azərbaycanın və onun xalqının rifahını düşünərək bu ali amal uğrunda yorulmaz fəaliyyət göstərib, ömrünü bu yolda fəda etdiyi üçün yaddaşlarda əbədiyaşarlıq qazanıb. O, hələ sağlığında hər bir azərbaycanlının qəlbində əbədi heykəlini qoymuşdu.

Məhz ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə xalqımız tarixin ən sərt və çətin sınaqlarından alnıaçıq, üzüağ çıxıb, müstəqil dövlətdə yaşamaq və özünü idarə etmək haqqını qorumağı bacarıb. 1987-ci il oktyabr plenumunda Heydər Əliyev SSRİ-nin ovaxtkı rəhbəri Mixail Qorbaçovun millətlər arasında ədavət toxumu səpməsinə, ayrı-seçkilik etməsinə, ümumiyyətlə, siyasi xəttinə etiraz əlaməti olaraq Siyasi Büronun üzvlüyündən və SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifəsindən istefa verdi. Bundan istifadə edən ermənilər öz havadarlarının köməyi ilə Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağa və ölkəmizə qarşı ərazi iddialarını açıq şəkildə həyata keçirməyə başladılar. "Torpaqdan pay olmaz" deyərək ayağa qalxan və kükrəyən xalqımızın haqq səsi Kremli silkələdi. Əlləri digər xalqların qanına batmış keçmiş SSRİ-nin sabiq rəhbəri Mixail Qorbaçov xalqın azadlıq, suverenlik arzusunu təpədən dırnağa qədər silahlanmış qanlı ordu ilə susdurmağa çalışdı. Ancaq buna nail ola bilmədi.Sovet rəhbərliyinin 1990-cı ilin yanvarında xalqımıza qarşı qanlı faciəni törətdiyi ən ağır vaxtda Moskvada yaşayan Heydər Əliyev həyatını təhlükə qarşısında qoyaraq, qanlı faciəsinin baş verdiyi günün ertəsi - 1990-cı il yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək siyasi bəyanatla çıxış etdi. Ulu Öndər 20 Yanvar faciəsinə etirazını bildirməklə sovet rəhbərliyinin cinayətkar əməllərini ifşa etdi.Məhz bu qeyri-adi xüsusiyyəti sayəsində ulu öndər həm də idarəçilikdə böyük uğurlara imza atmış, cəmiyyətin həlledici toplumunu arxasınca apara bilmişdir.

Heydər Əliyevin Liderlik keyfiyyətləri, siyasi prosesləri yönəltmək məharəti, cəmiyyətin maraq və mənafelərini ümumi bir nöqtədə birləşdirmək bacarığı Azərbaycan xalqının bu dahi şəxsiyyətə sonsuz etimadının əsas səbəblərindəndir. Azərbaycan neft ölkəsi olmasına baxmayaraq XX əsrin 60-cı illərində sovetlər ittifaqının geridə qalmış respublikalarından biri idi. Heydər Əliyev məhz belə bir vaxtda - 1969-cu il iyul ayının 14-də Azərbaycanda siyasi hakimiyyətə gəldi. Bundan əvvəl isə Heydər Əliyev Azərbaycanda dövlət təhlükəsizliyi sistemində rəhbər vəzifədə çalışmışdı. Böyük Öndər hələ bu orqanda fəaliyyəti dövründə Azərbaycan xalqı üçün əvəzolunmaz işlər görmüşdü. Respublikaya rəhbərliyə gəldikdən sonra isə Heydər Əliyev qısa bir zaman ərzində Azərbaycanın ictimai və siyasi həyatında böyük və əhəmiyyətli dəyişikliklər edə bildi. Ona görə Heydər Əliyev 1982-ci ildə sovetlər ittifaqında ali rəhbər vəzifəyə getdiyi zaman Azərbaycan artıq inkişaf etmiş sənaye respublikası kimi tanınırdı. O illərdə respublikada çoxlu sayda sənaye müəssisələri yaradılmış, Azərbaycanın ittifaq miqyasında əhəmiyyəti artmış, o cümlədən neft sənayesinin ayrı-ayrı sahələri yenidən qurulmuşdu. Heydər Əliyevin 1969-1982-ci illərdə Azərbaycanda rəhbər olduğu dövrdə yaratdığı sosial-iqtisadi, siyasi, mənəvi, psixoloji baza sonrakı dövrdə - müstəqillik illərində Azərbaycan xalqı üçün çox böyük əhəmiyyət kəsb etdi. SSRİ-nin dağılması ərəfəsində 15 müttəfiq respublikadan yalnız 3-ü - Rusiya, Ukrayna və Azərbaycan öz daxili imkanları hesabına iqtisadi problemlərini həll etməyə qadir idi. Sovet ittifaqının dağılması ərəfəsində mətbuatda dərc olunan təhlili materiallarda "Hansı müttəfiq respublika sovetlər ittifaqından ayrılaraq iqtisadi cəhətdən yaşamağa qadirdir" - sualına cavab axtarılarkən onların sırasında Azərbaycanın adı birinci yerdə çəkilirdi.

Azərbaycanın dövlət müstəqilliyinin bərpası ərəfəsində gedən prosesdə Heydər Əliyev tarixi şəxsiyyət, lider olaraq Azərbaycan xalqının taleyinə təsir göstərən əhəmiyyətli addımlar atdı. 1990-cı ilin yanvarında sovet qoşunları Bakıya hərbi müdaxilə edərək qanlı hadisələr törətdilər, yüzdən artıq vətəndaşımız qətlə yetirildi. Azərbaycan xalqının öz ərazi bütövlüyünü qorumaq uğrunda apardığı mübarizə qan içərisində boğuldu. Bu haqsızlığa qarşı Azərbaycan xalqı qəti etirazını bildirirdi. Heydər Əliyevin 1990-cı il yanvarın 21-də Azərbaycanın Moskvadakı nümayəndəliyinə gəlməsi və oradan xalqa səslənməsi, bu faciəni törədənləri kəskin ittiham etməsi tarixi prosesə, tarixi hadisələrə ciddi təsir göstərən addım idi. Məhz bu hadisədən sonra Azərbaycanda xalq hərəkatı milli azadlıq hərəkatına çevrildi. Əgər 1987-ci ildə Azərbaycan xalqı ərazi bütövlüyü və Qarabağın qorunması uğrunda mübarizəyə qalxmışdısa, 1990-cı ilin yanvarından sonra gedən mübarizə artıq müstəqillik, azadlıq, suverenlik, istiqlal uğrunda mübarizə idi. Heydər Əliyevin məhz həmin çıxışı, çağırışı Azərbaycanın siyasi həyatında böyük dəyişiklik məqamı oldu və milli azadlıq, istiqlal uğrunda mübarizə başlandı. Bu mübarizə 1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyinin bərpası ilə yekunlaşdı.

## 15 İYUN, 1993-CÜ İL - BÖYÜK XİLASKARLIQ QAYIDIŞI

XX əsrin sonlarında yenidən müstəqillik qazanmaq kimi tarixi fürsəti əldə edən Azərbaycan qısa vaxtdan sonra onun itirilməsi təhlükəsi ilə üzləşdi. Ölkədə hakimiyyət böhranı 1993-cü ilin iyununda kulminasiya həddinə çatdı, xaos və anarxiya respublikanı bürüdü. Vətəndaş müharibəsi dərəcəsinə yüksəlmiş qarşıdurma nəinki dövlət müstəqilliyimizi, hətta milli varlığımızı belə birbaşa hədəfə aldı. Beləliklə, 1991-1993-cü illər ölkəmizin müasir tarixində hərc-mərclik, özbaşınalıq, avantürist eksperimentlər dövrü kimi xatırlanır. Bütün bunlar isə həmin dövrdə yeni yaradılmış müstəqil dövlətə liderlik xüsusiyyətlərinə malik olmayan, siyasi hadisələrə qiymət vermək, gələcəyi görmək imkanlarından məhrum olan, adi vəziyyətdən belə çıxış yolu tapmağa qadir olmayan şəxslərin rəhbərlik etməsinə görə baş verirdi. Hadisələri düzgün qiymətləndirə bilməyən ovaxtkı iqtidar əhali arasında gündən-günə nüfuzunu itirir, baş vermiş proseslərdən düzgün nəticə çıxara bilmirdi.

Ümummilli lider Heydər Əliyev müstəqilliyimizin həmin mərhələsini belə xarakterizə edirdi: "Azərbaycan böyük təhlükə qarşısında idi. Çünki Azərbaycanın müstəqil yaşamasının əleyhinə olan həm daxildəki qüvvələr güclü idi, həm də Azərbaycan kimi böyük coğrafi-strateji əhəmiyyətə, zəngin təbii sərvətlərə malik olan ölkənin tam müstəqil olması başqa ölkələrdə bəzi dairələri qane etmirdi. Ermənistanın Azərbaycana etdiyi təcavüz və bunun nəticəsində Azərbaycanın zəifləməsi, məğlubiyyətə uğraması, ikinci tərəfdən də daxildə hakimiyyət çəkişməsi 1992-ci ilin iyun ayında hakimiyyətə gəlmiş qüvvələri bir ildən sonra hakimiyyətdən saldı, xalq özü saldı".

Azərbaycan torpaqlarının Ermənistan silahlı qüvvələri tərəfindən davamlı işğalı, getdikcə gərginləşən siyasi vəziyyət, əhalinin gündən-günə ağırlaşan sosial durumu ölkəni bu bəlalardan xilas edə biləcək, xalqı öz arxasınca aparmağa qadir liderə ehtiyac olduğunu şərtləndirirdi. Cəmiyyətin bütün təbəqələri əmin idi ki, müstəqilliyini yenicə bərpa etmiş ölkəni düşdüyü ağır və dözülməz vəziyyətdən çıxarmağa qadir yeganə şəxsiyyət məhz Heydər Əliyevdir.. Beləliklə, 1993-cü il iyunun 9-da ulu öndər Heydər Əliyev xalqın çağırışına səs verərək Bakıya qayıtdı və Azərbaycan Xalq Cümhuriyyətinin taleyindən daha dəhşətli hadisələrin gözlənildiyi ölkəmizi bəlalardan, müsibətlərdən xilas etdi. Həmin gün, sözün həqiqi mənasında, ölkəmizin taleyində dönüş anı oldu, böyük qurtuluşa doğru mühüm addım atıldı. Xalqımızı nicata aparan yol bilavasitə həmin gündən başlandı.1993-cü ildən ömrünün sonuna qədər, yəni, 2003-cü ilədək ömrünü müstəqilliyimizin əbədiliyinə, öz xalqının və Vətəninin inkişafına sərf edən Ulu Öndər Azərbaycanı dünyaya tanıtdırdı. Xalqımızın xoşbəxt, firavan gələcəyi üçün etibarlı bünövrə yaradaraq, dövlət idarəçilik mexanizmini formalaşdırdı. Heydər Əliyevin fəaliyyəti nəticəsində Azərbaycan Şərqlə Qərb arasında etibarlı körpü rolunu oynamaqla dünyanın ən dinamik inkişaf edən ölkələrindən birinə çevrilmişdir. Müasir müstəqil Azərbaycan dövlətinin tərəqqisi Heydər Əliyev ideyalarının təntənəsidir

Ardı Səh. 4

# Heydər Əliyev: zaman, şəxsiyyət və əbədiyyət...

### BUGÜNKÜ AZƏRBAYCAN HEYDƏR ƏLİYEVİN GÖRMƏK İSTƏDİYİ AZƏRBAYCANDIR

Ötən illər ərzində Azərbaycan böyük inkişaf yolu keçib. Ölkəmizin inkişaf strategiyası məhz ulu öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilib. Azərbaycanda Heydər Əliyev siyasətinin alternativi yoxdur. Bugünkü Azərbaycan Heydər Əliyevin görmək istədiyi Azərbaycandır. Qazanılan bütün nailiyyətlərin əsasında Ümummilli Lider tərəfindən müəyyənləşdirilən siyasi kurs və Prezident İlham Əliyevin bu siyasi kursu uğurla davam etdirməsi faktı dayanır. Bu günün fövqündən baxanda Azərbaycanın gələcəyi daha işıqlı və firavan görünür. Çünki müstəqil Azərbaycanın idarəçilik sükanı ulu öndər Heydər Əliyevin siyasi varisi Prezident İlham Əliyevin əlindədir.

Dahi şəxsiyyətin bu günümüz və gələcəyimiz üçün səsləndirdiyi fikirlərə, tezislərə diqqət yetirdikdə onun torpaq, Vətən sevgisinin nə qədər böyük olduğunu görürük. Ulu Öndərin suverenliyimizi daimi yaşatmaq, dövlət müstəqilliyimizi əbədi etmək üçün harada yaşamasından asılı olmayaraq hər bir azərbaycanlıya müqəddəs Azərbaycan qayəsi ətrafında əməl və əqidə birliyinə, sarsılmaz həmrəyliyə çağırışlar etməsi də bu sevgisindən qaynaqlanırdı. O, müstəqillik yollarında ilk addımlarını atan dövlətin qarşısında dayanan vəzifələrdən bəhs edərkən bildirirdi ki, onun beynəlxalq aləmdə özünü təsdiqləməsi üçün xarici əlaqələrimizi gücləndirməyə böyük ehtiyac var. Bu fakt da inkaredilməzdir ki, Azərbaycanın müstəqilliyinin yenidən bərpasının ilk illərində informasiya blokadasında olmasının əsas səbəbi ölkəmiz haqqında məlumatsızlıq idi. Erməni yalanları Azərbaycan haqqında məlumatsızlıq fonunda ayaq tutub yeriyir, ermənilər xislətlərinə, yalan təbliğatlarına uyğun olaraq özlərini beynəlxalq ictimaiyyətə "əzilən, döyülən, məzlum" xalq, millət kimi qəbul etdirməyə çalışırdılar. Torpaqları işğal edilən, bir milyondan artıq soydaşı qaçqın və məcburi köçkün vəziyyətində yaşayan Azərbaycan olduğu halda əksər dünya gücləri Ermənistanı işğala məruz qalan, Azərbaycanı isə işğalçı tərəf kimi qəbul edirdilər. 1992-ci ildə erməni diasporunun təşəbbüsü ilə ABŞ Konqresi tərəfindən ölkəmizə qarşı "Azadlığı Müdafiə Aktına" ədalətsiz 907-ci düzəlişin əlavə edilməsi də bunun bariz nümunəsi idi. Ermənilərin və erməni lobbisinin məqsədi bu qərarın qəbulu ilə Azərbaycanı iqtisadi cəhətdən zəifləmək və asılı vəziyyətə salmaq idi.

Amma hadisələrin təhlili də göstərdi ki, Azərbaycan 10 ilə yaxın bu ədalətsiz qərarın tətbiqi şəraitində yaşasa da nəinki iqtisadi cəhətdən zəifləmədi, əksinə ulu öndər Heydər Əliyevin düşünülmüş və məqsədyönlü siyasəti nəticəsində daha qüdrətli, zəngin dövlətə çevrildi. Bu proseslər, eyni zamanda, hər bir ölkənin həyatında Lider amilinin roluna işıq salır. Bu ədalətsiz qərarın hansı dövlətlərə tətbiq edildiyi məlumdur. Ulu öndər Heydər Əliyev hakimiyyətə qayıtdığı ilk gündən əsas fəaliyyət istiqamətlərindən biri Azərbaycanın ətrafında yaradılan informasiya blokadasının yarılması oldu. Ümummilli Liderin elə bir xarici ölkəyə səfəri yox idi ki, bu gün artıq tarixə qovuşan "Dağlıq Qarabağ" münaqişəsindən bəhs olunmasın, erməni yalanları faktlar əsasında dünya ictimaiyyətinə çatdırılmasın. Diplomatik uğurlarımızın nəticəsində dünya siyasətində dəyişikliklər baş verməyə başladı.

### ATA VƏSİYYƏTİ - OĞUL HESABATI

Bütün mənalı həyatını ölkəmizin tərəqqisinə, insanların rifahının yaxşılaşdırılmasına həsr edən Ümummilli Liderimizin ən böyük arzusu işğal olunmuş torpaqlarımızın azad edilməsi idi. O, bunun üçün var qüvvəsi ilə çalışırdı. Doğma ocaqlarından didərgin düşmüş qaçqın və məcburi köçkünlərin bütün problemlərinin həll olunması üçün bütün imkanları səfərbər etmişdir. Və onun ən böyük xidmətlərindən biri də 1994-cü ildə atəşkəslə bağlı sənədin imzalanması olmuşdur. Ölkədə cənab İlham Əliyev tərəfindən aparılan islahatlar və quruculuq işləri, xüsusilə də son 19 ildə həyata keçirilən güclü dövlət, güclü ordu strategiyası, çox vektorlu siyasi münasibətlər, regional və beynəlxalq əhəmiyyətli layihələr torpaqlarımızın işğaldan azad olmasının səbəbidir.

Bəli, bu gün Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyünün bərpasına nail oldu. Böyük Öndər Heydər Əliyev demişdir: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə ümidlər bəsləyirəm".

Ümummilli lider Heydər Əliyevin müdrik, uzaqgörən və çevik daxili və xarici siyasətini özünün siyasi kursu elan etmiş, Heydər Əliyev idarəçilik məktəbinin layiqli davamçısı hesab edilən İlham Əliyevin məqsədyönlü fəaliyyəti nəticəsində Ali Baş Komandanımız, Prezident İlham Əliyev cənablarının dediyi kimi: "Dərsini verdik. Öz bayrağımızı ucaltdıq Şuşada və bütün başqa şəhər və rayonlarımızda. Hər kəs gücümüzü gördü. Hər kəs qüdrətimizi gördü, iradəmizi gördü. Bu dəmir yumruq onların belini qırdı, onların başını əzdi. Bu, birlik yumruğudur, bu, güc yumruğudur. Bundan sonra Azərbaycan yalnız inkişaf, tərəqqi yolu ilə gedəcək. Bundan sonra da biz ordu quruculuğu işində əməli addımlar atacağıq, ordumuzu daha da gücləndirəcəyik. Bütün göstərişlər verildi. İradəmiz də var, təcrübəmiz də var - əvəzolunmaz təcrübə. İndi bütün ölkələr bu Vətən müharibəsinin təcrübəsini öyrənirlər. Vəsaitimiz də var. Xalq-iqtidar birliyimiz də var. Biz göstərmişik ki, böyük xalqıq, qürurlu xalqıq. Düşməni yerə vurduq. Düşmənin belini qırdıq, məhv etdik. Bu, tarixi Qələbədir. Bu Qələbə Azərbaycan tarixində əbədi qalacaq, şanlı Qələbə kimi!"

Bəli, ruhun şad olsun ulu öndər, Qarabağ Azərbaycandır! Azərbaycan xalqının Qalib Lideri, Azərbaycan xalqının Prezidenti İlham Əliyev dəmir siyasətinin nəticəstndə "Qarabağ" problemi yoxdur!. Prezident İlham Əliyev bildirib ki, biz döyüş meydanında, siyasi müstəvidə Qələbə qazanmışıq və bu Qələbə ölkəmiz üçün yeni dövr açır. Bu dövr inkişaf, təhlükəsizlik, tərəqqi dövrü olacaqdır: "Bu dövrlə bağlı müraciətlərimi yenə də hər bir Azərbaycan vətəndaşının arzuladığı sözlərlə yekunlaşdırmaq istəyirəm: Cəbrayıl bizimdir, Füzuli bizimdir, Zəngilan bizimdir, Qubadlı bizimdir, Ağdam bizimdir, Kəlbəcər bizimdir, Laçın bizimdir, Şuşa bizimdir, Qarabağ bizimdir! Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan xalqına! Yaşasın Azərbaycan!".Ona görə də Ulu Öndərin fiziki yoxluğu dövründə ölkəsini, millətini düşünüb, müstəqilliyimizin əbədi olması uğrunda qətiyyətlə mübarizə apara biləcək yeganə Lider Prezident İlham Əliyev cənablarıdır. Bütün bunlar isə Heydər Əliyev uzaqgörənliyinin, Heydər Əliyev zəkasının və Heydər Əliyev nurunun bizə tərəf saçılan əbədi şöləleridir!

***RƏFİQƏ KAMALQIZI***

# Pyotr Luçinski: "Heydər Əliyev sarsılmaz iradəli insan idi"

"Heydər Əliyevin sözlərinə çox ciddi əməl edirdilər. Mən onu yaxından tanıdığıma görə çox fəxr edirəm." Moldovanın keçmiş Prezidenti Pyotr Luçinski bu sözləri AZƏRTAC-a müsahibəsində söyləyib.



**-Pyotr Kirilloviç, ilk növbədə sağ olun ki, müsahibə verməyə razılaşdınız. Heydər Əliyevlə necə tanış olmağınız barədə danışaydınız...**

-Heydər Əliyevlə mən 1970-ci illərin əvvəlində Bakıda keçirilən bir gənclik tədbirində iştirak edərkən tanış olmuşam. Bir neçə ildən sonra faşizm üzərində Qələbənin 30 illiyi qeyd edilirdi. Rumıniyanın azad edilməsinin 30 illik bayramında iştirak etmək üçün Siyasi Büronun qərarına əsasən nümayəndə heyəti yaradılmışdı. Həmin nümayəndə heyətinin rəhbəri Aleksey Nikolayeviç Kosıgin idi, nümayəndə heyətinin tərkibinə isə Heydər Əliyev, Sovet Ordusu Baş Siyasi İdarəsinin rəisi Aleksey Yepişev və mən daxil idim. Ay yarımdan sonra Heydər Əliyev Moldovaya, respublikanın 50 illiyi ilə əlaqədar bayram şənliklərinə gəlmişdi, mən də onun bu respublikada olmasına cavabdeh idim. O vaxtdan aramızda yaranmış dostluq münasibətləri onun həyatının sonuna qədər davam etdi.

**-Heydər Əliyevi necə xatırlayırsınız?**

-Mən onunla çox görüşlərdə iştirak etmişəm və istər Sovet dövründə, istərsə də bizim respublikalar artıq müstəqil dövlətlər olan vaxtda Heydər Əliyevə necə münasibət bəsləndiyini görmüşəm. Həm Yeltsinin, həm də Putinin dövründə MDB ölkələrinin dövlət rəhbərləri bir yerə toplaşanda həmişə çıxış üçün ilk söz Heydər Əliyevə verilirdi və onun fikrinə necə diqqət yetirildiyini görürdüm. O, həqiqətən ağsaqqal idi, çünki zəngin təcrübəyə malik, olduqca dərin mühakiməli adam idi, hadisələri və prosesləri sakit və düzgün qiymətləndirirdi. Heydər Əliyevin sözlərinə çox ciddi əməl edirdilər. Onu yaxından tanıdığıma görə çox fəxr edirəm. Mən Moskvada işləyəndə tez-tez Azərbaycanda olurdum və hər dəfə onunla görüşürdüm.

**- Heydər Əliyevin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu gün dünya siyasətinə töhfəsini necə qiymətləndirirsiniz?**

- Heydər Əliyev sarsılmaz iradəli insan idi. Məsul qərarlar qəbul etməli olduğu müxtəlif vəziyyətlərdə bu keyfiyyətlərini dəfələrlə göstərirdi, tale onun imkanlarını, öz xalqının inkişafına töhfəsini qiymətləndirir, eyni zamanda, onu böyük sınaqlara məruz qoyurdu. Heydər Əliyevin Moskva üçün "artıq adam" olduğu dövr yadımızdadır. O vaxt mən Azərbaycana gəlmişdim, Heydər Əliyevlə görüşüb dörd saat söhbət etdik və o, bütün bu hadisələrin necə baş verməsi, Naxçıvana necə gəlməsi barədə danışdı. Bir müddətdən sonra Azərbaycan cəmiyyəti onu respublika rəhbərliyinə qayıtmağın zəruri olduğunu dərk etdi və ölkənin sonrakı inkişafı onun adı ilə bağlıdır. Bu gün, onun ilk dəfə respublika rəhbərliyinə gəlişindən yarım əsrdən çox keçəndən sonra Azərbaycan Heydər Əliyevin ideyaları və onun fəaliyyəti işığında inkişaf edir. Tale elə gətirib ki, Heydər Əliyevin bütün təşəbbüsləri onun oğlu, Azərbaycanın indiki Prezidenti İlham Əliyev tərəfindən davam etdirilir. Qeyd etməliyəm ki, məhz bu varislik də ölkənin xeyrinə olub: hazırda Azərbaycan təkcə regionda deyil, bütün dünyada nüfuz sahibi olan ölkədir. Bunu demək kifayətdir ki, bu gün Bakı çoxsaylı beynəlxalq hadisələrin mərkəzidir. Məsələn, mən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvüyəm və biz hər il Azərbaycanın paytaxtında görüşürük. Bu görüşlərdə dünyanın müxtəlif ölkələrindən çoxsaylı qonaqlar iştirak edir. Təkrar edirəm, son əlli ildə baş vermiş hadisələri nəzərə alsaq, siyasətdə bu cür varisliyin faydalı olduğunu vurğulamaq lazımdır. Bu halda siyasət özü xalqın, məhsuldar qüvvələrin, iqtisadiyyatın, mədəniyyətin inkişafına yönəlmiş olur və Azərbaycan buna ən yaxşı əyani sübutdur. Ona görə də Heydər Əliyevin adı gələndə mənim nəzərimdə həmişə böyük bir müdrikliklə assosiasiya yaranır, o həmişə hərtərəfli düşünülmüş qərarlar qəbul edirdi. Heydər Əliyevə dünya səviyyəsində ehtiram bəsləyirlər. Mən bunu təkcə öz regionumuz, Moldova barədə demirəm, bunu Rumıniya, Ukrayna və bir çox başqa ölkələrin nümunəsində görmüşəm: Heydər Əliyevi həmişə ən xoş sözlərlə yad edirlər. Azərbaycan Heydər Əliyevin siyasi kursunu davam etdirməklə elə uğurlar qazanıb ki, son nəticədə Azərbaycan üçün ən ağrılı və uzun illər boyu davam etmiş problem - ölkənin ərazi bütövlüyü məsələsi öz həllinin yekun mərhələsinə çatıb.

Mən əminəm ki, Heydər Əliyevin anadan olmasının qarşıdan gələn 100 illiyi təkcə Azərbaycanda qeyd edilməyəcək, o, əsl dövlət xadiminin, ölkə rəhbərinin etalonu, nümunəsi idi. Heydər Əliyev həmişə öz xalqı barədə, Azərbaycan haqqında düşünürdü və ölkəsinin firavanlaşması üçün onun gördüyü işlər əsrlər boyu bəhrəsini verəcək.

# Azad edilmiş ərazilərdə aşkarlanan minaların sayı açıqlandı

Azad edilmiş ərazilərimizdə Azərbaycan Ordusunun mühəndis-istehkam bölmələrinin fəaliyyəti nəticəsində cari il ərzində 15 620 hektaradək ərazi mina və partlamamış döyüş sursatlarından tam təmizlənib. Bu barədə S?A-ya Müdafiə Nazirliyindən məlumat verilib. İşğaldan azad edilmiş ərazilərdə bu günədək mühəndis-istehkam bölmələri tərəfindən 29113 hektardan artıq ərazi mina və partlamamış döyüş sursatlarından təmizlənib.

Ümumilikdə 10185 ədəd piyada əleyhinə, 2580 ədəd tank əleyhinə mina və 10445 ədəd partlamamış döyüş sursatı aşkarlanaraq məhv edilib. Əsas səylərin azad olunan ərazilərdə yaşayış məntəqələri, əkin sahələri, yollar və infrastruktur obyektlərinə yönəldildiyi mina təmizlənmə işlərində Azərbaycan Ordusunun mühəndis-istehkam bölmələrinin sərəncamında olan qardaş Türkiyədən alınmış "MEMATT" (Mexaniki Mina Təmizləmə Təchizatı) texnikası da cəlb edilib. Azad edilən ərazilərimizdə mühəndis təminatı üzrə zəruri tədbirlər davam etdirilir.






# “Bu istismarçı talanlara son qoymağın vaxtıdır”

***Bildiyimiz kimi, Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan ərazilərdə faydalı qazıntı yataqları, xüsusilə "Qızılbulaq" qızıl və Dəmirli mis-molibden yataqlarının qanunsuz istismarına etiraz olaraq eko-fəallar və QHT təmsilçiləri Şuşa-Xankəndi yolunda aksiya keçirirlər. SİA mövzu ilə bağlı aksiya iştirakçıları arasında sorğu keçirib.***

”**Mediada İnnovativ Təşəbbüslərə Dəstək İctimai Birliyi”nin sədri Müşfiq Ələsgərli:** ”Həyata keçirilən aksiyanı iki kontekstdə müsbət qiymətləndirirəm. Birincisi ondan ibarətdir ki, Azərbaycanın təbii sərvətləri uzun müddət separatçı qüvvələr tərəfindən talan edilib. Buna görə də hesab verməlidirlər.

Artıq bu istismarçı talanlara son qoymağın vaxtıdır. Rusiya sülhməramlıları şərait yaratmalıdırlar ki, Azərbaycan ekoloqları həmin mədənlərdə monitorinqlər aparsınlar və qanunsuz istismarın qarşısı alınsın. Aksiya haqlı tələblər üzərində qurulub və ərazi üzərində suveren hüquqları olan Azərbaycan qanunlarına, beynəlxalq konvensiyalara tam uyğundur.

İkinci kontekst ondan ibarətdir ki, bu aksiya kifayət qədər innovativ düşünülüb. Ona görə ki, dünyanın özünü trend hesab etdiyi mövzular var ki, o trendlər içərisində həm də ekoloji məsələlər var. Bəllidir ki, yaşadığımız dövrdə dünya kifayət qədər ekoloji problemlərlə üz-üzədir. Bu baxımdan, bütün dünya ictimaiyyəti və dünya təşkilatları ekoloji problemlərə həssas yanaşırlar. Həmçinin, aksiyaçılar dünyanın diqqətini cəlb etmək üçün kifayət qədər yaxşı bir üsuldan istifadə edirlər.

Məsələnin başqa bir tərəfidir ki, günlərdir soyuq havada aksiya keçirilir. Aksiya iştirakçıları əsl vətənpərvərlik nümayiş etdirirlər.

Həmçinin, aksiya uğurludur və kifayət qədər diqqət çəkib. Ermənilər məqsədinə çatmayacaq və biz isə məqsədlərimizə nail olacağıq”.

**Jurnalist Ekspert Mərkəzinin sədri Ceyhun Musaoğlu:** ”Rusiya sülhməramlılarının müvəqqəti nəzarəti etdiyi Qarabağ iqtisadi rayonuna daxil olan bəzi ərazilərdə ermənilərin bilavasitə təşklatçılığı ilə təbii sərvətlərimiz - xususən ”Qızılbulaq” ”Dəmirli” mis-molibden yataqlarının böyük hissəsinin istismar olunduğu Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən kosmik görüntülərə əsasən aparılan monitorinqlər nəticəsində müəyyənləşdirilib.

Məhz bu qanunsuzluğun, Azərbaycan əarzilərindəki istismarın dayandırılması, dəymiş ziyanın monitorinqinin aparılması məqsədilə QHT təmsilçiləri Şuşa-Xankəndi yolunda aksiya keçirirlər. Artıq aksiyanın 6-cı günüdür və 4-cü günündə mən də orada Jurnalist Ekspert Mərkəzi ictimai Birliyinin sədri kimi iştirak etdim.

Jurnalist olaraq bir daha aydınlaşdırdım ki, məqsəd Laçın yolunun açılması, ekoloji sahə üzrə mütəxəssislərin Xankəndinə gedərək sərvətlərimizin istisimarına dair faktların yerində araşdırılmasıdır.

Azərbaycan sərvətlərinin bizim nəzarətimizdə kənarda olan ərazilərimizdə istismara məruz qoyulmasına, filizlərin qeyri-qanuni yolla xarici ölkələrə daşınmasına sülhməramlılar göz yumurlar. İrandan gələn onlarla iranlının, iranlı adı altında şirkətlərin və ya digər xarici şirkətlərin həmin ərazilərə daxil olmasına məhz sülhməramlılar şərait yaradırlar. Bu hallara dəfələrlə həm rəsmi, həm də ictimi mövqedən etirazımızı bildirmişik və sülhməramlıların da komandanlığı giriş-çıxışa nəzarət edə bilmədiklərini, yoxlamalar aparmağı bacarmadıqlarını etiraf ediblər. Azərbaycan tərəfindən olan monitorinq qrupunu isə ərazilərimizə buraxmırlar. Bu necə missiya yerinə yetirməkdir? Deməli, onda missiyalarını yerinə yetirə bilmirlər.

Bu məntiqdən çıxış edərək nəzarətsiz qalan Qarabağ ərazilərinə gedən yollarda Azərbaycanın müvafiq qurumlarının monitorinq mərkəzlərinin yaradılması tələbi də gündəmə gəlib. DTX-nın, DİN-in, FHN-in, Gömrük Komitəsinin və bu kimi qurumların yoxlama məntəqləri yaradılmalıdır. Axı sülhməramlılar özləri etiraf edirlər ki, onlardakı qurğularla sözügedən ərazilərdən keçən avtomobilləri, sənədləri, şəxslərin kimliklərini tam yoxlaya bilmirlər. Təbii ki, onlar Azərbaycan ərazilərinə saxta sənədlərlə daxil olurlar. Bu sənədlərin saxta olduğunu Rusiya sülhməramlıları aşkara çıxarmağı bacarmırlar.

Bizim ərazilərimizdə dağıdıcılıq işi ilə məşğul olmağa imkan verməməliyik. 28 il işğal ərzində elimizi, obamızı, yurdlarımızı viran etdilər, cənnət diyarlarımızı cəhənnəmə çevirdilər. İndi yenidən eyni hərəkəti təkrar etmək istəyirlər. Halbuki müharibə çoxdan bitib və Qarabağda yaşayan erməni əsilli əhali Azərbaycan vətəndaşlarıdır. Onlar bizimlə birgə eyni hüquqda, eyni rahatlıqda yaşaya bilərlər və yaşayacaqlar. Amma bu gün Xankəndidə olan erməni silahlıları, terrorçuları mülki erməni sakinlərinin öz istəklərinə uyğun yaşamalarına imkan vermirlər. Erməni terrorçuları Azərbaycan vətəndaşları olan erməniləri girov saxlayıblar, imkan vermirlər ki, münaqişə tam sona çatsın sülh müqaviləsi imzalansın.

Biz bəyan edirik ki, Qarabağın nəzarətimizdən kənarda qalan hissəsində yaşayan insanlara humanitar yardım etmək istəyirik. Deyirlər orada xəstələr var, guya müalicəyə Ermənistana gətirilə bilmirlər və yol bağlıdır. Biz onlara təcili tibbi yardım maşınları, göndərməyə, hümanitar yardım göstərməyə hazırıq. Amma Rusiya sülhməramlıları yolu bağlayıb. Onlar imkan vermirlər ki, biz Laçın yolundan keçək və həmin ərazilərə daxil olaq. Faktiki ptən gün, bu gün Xankəndinə hümanitar yardım avtomobilləri gedib və bu fakt əks etdirən görüntülər var. Deməli, ərazilərimizdə yaşayan ermənilər heç də blokadada deyirlər, sadəcə Azərbaycan mütəxəssislərinin öz ərazilərinə daxil ilmalarına şərait yaradılmır.

Laçın - Şuşa yolundan quldurluq və terrorçuluq məqsədi ilə istifadə olunmasın, Rusiya sülhməramlıları terrorizmin inkişafına göz yummasınlar. İrandan silahlar gətirilir və həmin terrorçulara təlimlər keçirilir. Sonra o silahlar Azərbaycana tuşlanır. Bu da münaqişəni yenidən qızışdırmaq məqsədi daşıyır. Biz də bütün bunlara etiraz edirik. Etirazımız nsanlığın tələbidir. Kimin nə ixtiyarı var ki, ərazimizdə dağıdıcılıq işləri görsün, sərvətlərimizi talasın?..

Artıq müharibə bitib. Xalqlar əbədi düşmən olmurlar. Dünyada əbədi düşmən olan xalqlar yoxdur. Müharibə bitəndən sonra həyat öz təbii axarına düşür. Biz istəyirik ki, bütün yollar hər mənada hamar olsun, Laçın dəhlizi, Zəngəzur dəhlizi, Azərbaycanla Ermənistan arasında olan kommunikasiya münasibətləri

Kriminal iş adamı Ruben Vardanyanın Azərbaycanın təbii sərvətlərinin talan etməsi və ətraf mühitə ciddi ziyan vurulması yolverilməzdir.

Laçın yolu azərbaycanlı etirazçılar tərəfindən deyil, Rusiya Federasiyasının sülhməramlı kontingenti tərəfindən bağlanıb. Azərbaycan vətəndaş cəmiyyəti nümayəndələri sadəcə talan edilmiş təbii sərvətlərin qanunsuz daşınmasının qarşısını almağa çalışır.

Azərbaycanın sözügedən ərazilərində təbii sərvətlərinin talan edilməsi dayandırılmalı, bütün təbii sərvətlərin istismarı Azərbaycan Respublikası qanunvericiliyi əsasında həyata keçirilməlidir”.

***Ayşən Vəli***

SORĞU

# "Üçtərəfli Zirvə Görüşü əlaqələrimizin daha da güclənməsinə xidmət edir"



***Türkmənbaşı şəhərində Azərbaycan, Türkiyə və Türkmənistan Dövlət Başçılarının Birinci Zirvə Görüşdə müzakirə olunan məsələlər ölkələrimiz, xalqlarımız arasında əlaqələrin daha da güclənməsinə xidmət edir. Zirvə Görüşü türkdilli dövlətlərin mövcud olan sıx əlaqələrinin və əməkdaşlığın daha da gücləndirilməsi niyyətinin növbəti nümunəsidir.***

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva deyib.

O bildirib ki, Azərbaycanın həm Türkiyə, həm də Türkmənistanla siyasi əlaqələri yüksək səviyyədədir. Prezident İlham Əliyevin dediyi kimi, Türkiyə ilə keçən il imzaladığımız Şuşa Bəyannaməsi münasibətlərimizi strateji müttəfiqlik səviyyəsinə çatdırıb. 2017-ci ildə isə Azərbaycan ilə Türkmənistan arasında strateji tərəfdaşlıq haqqında Bəyannamə imzalanıb. Ümumiyyətlə, Vətən müharibəsində ərazilərini işğaldan azad etdikdən sonra Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə münasibətlərində yüksək dinamika müşahidə olunur. Hazırda Azərbaycanın Mərkəzi Asiya, regionun türkdilli dövlətləri, o cümlədən Türkmənistanla genişlənən əlaqələri yeni reallıqlara uyğun şəkildə inkişaf edir və strateji səviyyəyə yüksəlir. Bu il Türkmənistan Prezidentinin Azərbaycana, dövlətimizin başçısı İlham Əliyevin isə bu ölkəyə səfərləri, həmin səfərlər zamanı aparılan müzakirələr və əldə olunmuş razılaşmalar əlaqələrimizin gələcək istiqamətlərinin müəyyənləşməsində mühüm rol oynayır.

Deputatın sözlərinə görə, Azərbaycan Prezidenti İlham Əliyevin Türkmənistana səfəri və Zirvə Görüşündə iştirakı ölkələrimiz arasında yüksək səviyyədə olan əlaqələrin daha da inkişafına və qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlığın gücləndirilməsinə töhfə verəcək. Səfər çərçivəsində dövlətimizin başçısı Türkmənistanın Prezidenti Sərdar Berdiməhəmmədov və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşüb. Görüşlərdə üçtərəfli münasibətlərin gündəliyində olan aktual məsələlər müzakirə olunub. Bundan əlavə, prezidentlərin təkbətək, məhdud və geniş tərkibdə görüşləri keçirilib. Zəngəzur dəhlizinin açılması istiqamətində görülən işlərdən danışan dövlətimizin başçısı diqqətə çatdırıb ki, Azərbaycan ərazisindən keçən hissəsində aparılan işlərin dəmir yolu xətti üzrə 40 faizi, avtomobil yolu üzrə 70 faizi icra olunub. Bütün işlər 2024-cü ildə tamamlanacaq və nəticədə yeni nəqliyyat dəhlizi yaranacaq. Azərbaycanın tarixi ərazisi olan Zəngəzurdan keçəcək, Naxçıvan Muxtar Respublikası və daha sonra Türkiyəni birləşdirəcək yeni dəhliz regionun nəqliyyat sektorunda olduqca böyük imkanlar yaradacaq. Zəngəzur dəhlizindən istifadə türk dövlətləri arasında təkcə iqtisadi-ticari əlaqələrin deyil, eyni zamanda, mənəvi, mədəni, siyasi birliyin daha da güclənməsinə töhfə verəcək. Zəngəzur dəhlizi geniş mənada türk dünyasını birləşdirəcək.

"Ölkələrimizi mehriban qonşuluq və tarixi dostluq əlaqələri, siyasi, iqtisadi, humanitar və digər sahələrdə strateji tərəfdaşlıq münasibətləri də birləşdirir. Hər üç ölkə beynəlxalq və regional təşkilatlar, xüsusilə ortaq irsə əsaslanan Türk Dövlətləri Təşkilatı çərçivəsində sıx əməkdaşlıq edirlər. Müxtəlif sahələrdə genişlənən və daha da dərinləşən əməkdaşlıq münasibətləri onu deməyə əsas verir ki, dost və qardaş ölkələr olan Azərbaycan, Türkiyə və Türkmənistan indiyədək əldə olunan dinamikanı bundan sonra da artıracaq və yeni əməkdaşlıq istiqamətləri müəyyənləşdirəcəklər. Zirvə Görüşündə imzalanan sənədlər də bu reallığı bir daha təsdiqləyir", - deyə Sevinc Fətəliyeva vurğulayıb.



# FAHRETTİN ALTUN: "Türkiyə qlobal gücdür"

Türkiyə Prezidenti Administrasiyasının Kommunikasiya İdarəsinin rəhbəri Fahrettin Altun bildirib ki, Türkiyə qlobal böhranların həlli istiqamətində atdığı təşəbbüslərlə qəhrəmandır. SİA-nın əldə etdiyi məlumata görə, Altun İstanbulda keçirilən Türkiyə Milli Brendinq Forumunda çıxış edib.

Yeni nizama ehtiyacın dünyada çox daha yüksək səslə dilə gətirildiyini vurğulayan F.Altun deyib: "Qlobal sınaqlardan uğurla çıxan Türkiyə regional böhranların və qlobal münaqişələrin həllinə də öz töhfəsini verir. Türkiyə prinsipial xarici siyasəti ilə qlobal sülh və sabitliyin mərkəzi ölkəsi mövqeyində qərarlaşıb. Diplomatiyadan humanitar yardıma, sağlamlıqdan ətraf mühitə qədər qurduğumuz Türkiyə modelləri bu gün dünyaya nümunə oldu.

Türkiyə investisiyadan ticarətə, səhiyyədən təhsilə, davamlı enerjidən texnologiya və innovasiyaya, humanitar diplomatiyadan sülh vasitəçiliyi səylərinə qədər bütün sahələrdə güclü addımlar atmış regional güc və qlobal gücdür.

Türkiyə qlobal böhranların həlli üçün atdığı təşəbbüslərlə qəhrəmandır. Türkiyə məzlumun tərəfindədir, zalımın əleyhinədir. Türkiyə bəşəriyyətə xidmət göstərən dəyərlərin müdafiəçisidir.

# "Hər birimiz ekoloji terrora qarşı öz haqq səsimizi ucaltmalıyıq"



""Şuşa-Xankəndi yolunda keçirilən aksiya Azərbaycan ictimaiyyətinin öz dövlətinə, xalqına, vətəndaşına, təbii sərvətlərinə sahib çıxmaq niyyətində olduğunun və artıq bunu bacardığının bariz nümunəsidir". Bu fikirləri SİA-ya "Resurs" Analitik İnformasiya Mərkəzinin sədri Rasim Quliyev Azərbaycan vətəndaş cəmiyyəti nümayəndələrinin və ekologiya fəallarının Şuşa-Laçın yolunda həyata keçirdiyi etiraz aksiyası ilə bağlı açıqlamasında deyib.

Mərkəzin sədri qeyd edib ki, buna görə də Azərbaycanın ictimai fəalları, qeyri-hökumət təşkilatının nümayəndələri, müxtəlif sosial təbəqədən olan insanlar burada iştirak edir: "Hər birimiz Azərbaycanın təbii sərvətlərinin qanunsuz şəkildə daşınmasına, ermənilərin Qarabağda törətdiyi ekoloji terrora qarşı öz haqq səsimizi ucaltmalıyıq. Azərbaycanın son 30 ildə təbii sərvətləri istismar olunaraq dağıdılıb və bu proses bu gün də davam edir. Qanunsuz olaraq talan edilən təbii sərvətlərdən əldə olunan gəlirin bir qismi ermənilərin rifahı üçün sərf olunsa da, böyük bir hissəsi yalnız və yalnız beynəlxalq bir qrupun mənafeyi üçün istifadə olunur. Azərbaycan həmişə sülh çağırışları edərək erməni cəmiyyətinə çatdırıb ki, onlar hər hansısa bir beynəlxalq mafiyanın qurbanı olmasınlar. Nə qədər ki, gec deyil bizim vətəndaşlığımızla birgəyaşayışı qəbul edərək torpaqlarımızda yaşaya bilərlər. Ermənistan artıq Qarabağ yükünü öz üzərində daşımaq istəmir. Fikrimcə, Azərbaycan dövləti öz torpaqlarında monitorinqlər aparmalıdır. Aksiyada iştirak edən insanların da ən böyük amalı budur və inanırıq ki, məqsədimizə nail olacağıq. Rus sülhməramlı qüvvələrinə artıq bizim inamımız itib və özlərinin də etiraf etdiyi kimi bizim ərazilərimizə nəzarət edə bilmirlər. Azərbaycanın güclü ordusu var. Biz müstəqil ölkə olaraq aidiyyatı qurumlarımızın iştirakı ilə qanunsuz istismar olunan yataqlarımızda monitorinqlər aparmalıyıq".

# "Türkmənistanda keçirilən Birinci Zirvə Görüşü qardaşlığın ifadəsidir"





"Türkdilli dövlətlər arasında münasibətlərin yaxşılaşdırılması, birliyin təmin olunması nəinki bu ölkələrin iqtisadi inkişafı, eləcə də milli təhlükəsizliyi baxımından əhəmiyyətlidir. Yaxşı haldır ki, son illər Azərbaycan və Türkiyə dövlət rəhbərlərinin, Rəcəb Tayyib Ərdoğanın və İlham Əliyevin səyləri, təşəbbüsləri nəticəsində türkdilli dövlətlərin birliyinin yaradılması və möhkəmləndirilməsi öz bəhrəsini verməkdədir. Türkmənistanda ilk dəfə olaraq 3 qardaş-Azərbaycan, Türkiyə və Türkmənistan prezidentlərinin Birinci Zirvə Görüşü bunun əyani ifadəsidir." Bu sözləri S?A-ya verdiyi açıqlamasında Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri, millət vəkili Tahir Rzayev deyib.

Komitə sədri vurğulayıb ki, bu görüş və imzalanan üçtərəfli sənədlər, səsləndirilən bəyanatlar strateji tərəfdaşlığın gündən-günə gücləndirilməsini, türkdilli ölkələrin yeni qlobal miqyaslı enerji, nəqliyyat layihələri ilə hansı imkanlara və gücə malik olduqlarını bütün dünyaya göstərdi.

"Üç qardaş ölkənin rəhbərləri tərəfində imzalanan 5 mühüm sənəd çox böyük əhəmiyyətə malikdir və xüsusilə, enerji ehtiyatları tədarükünün genişləndirilməsinə, şaxələndirilməsinə, tranzit-nəqliyyat əlaqələrinin möhkəmləndirilməsinə gələcəkdə öz töhfələrini verəcəkdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev öz çıxışında ölkəmizin Avropanın enerji təhlükəsizliyinin təmin olunmasındakı roluna və dünya dövlətlərinin enerjiyə olan ehtiyacına diqqəti cəlb etməklə imzalanan sənədlərin vacib olduğunu bildirmiş, Azərbaycan-Türkiyə və Türkmənistan əməkdaşlığına, qardaşlığına böyük önəm vermişdir. Bildirmişdir ki, 2022-ci ilin yanvar-oktyabr aylarında Azərbaycanın Türkiyə ilə ticarət dövriyyəsi 45 faiz, Türkmənistanla 5 dəfə artmışdır. Ölkəmizin rəhbəri qeyd etmişdir ki, "Azərbaycan, Türkiyə və Türkmənistan nəqliyyat-loqistika sahəsində böyük uğurlara imza atmışdır. Ölkələrimiz tərəfindən bir çox layihələr icra edilmişdir ki, bunlar da öz növbəsində nəqliyyat bağlantıları sahəsində əməkdaşlıq üçün yeni imkanlar açır".

Görüş zamanı ölkələr arasında təhlükəsizlik, müdafiə, müdafiə sənayesi sahələrində əməkdaşlığın genişləndirilməsinə, belə görüşlərin müntəzəm keçirilməsinə böyük önəm verilib və ikinci Zirvə görüşünün Bakıda keçirilməsi qərara alınıbdır. Hər üç ölkənin rəhbəri Türkmənistan Zirvə Görüşünün nəticələrini qiymətləndirməklə bərabər belə görüşlərin, imzalanan sənədlərin dövlətlərin gələcək inkişafına, möhkəm və hərtərəfli əməkdaşlığa zəmin yaradacağına fayda verəcəyinə əmin olduğunu bildiriblər", deyə Tahir Rzayev qeyd edib.

***İnam Hacıyev***

# Azərbaycan konseptual yeniliklərin müəllifidir

## Prezident İlham Əliyev: "ASAN xidmət" 60 milyona yaxın müraciət üzrə dövlət xidmətləri göstərilməsini təmin etmişdir"




*Vətəndaşların əlavə xərclərinin və vaxt itkisinin azalması, vətəndaşlara münasibətdə etik qaydalara, nəzakətli davranışa əməl edilməsinə nail olunması, şəffaflığın artırılması, korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi məqsədi ilə yaradılan Azərbaycan brendi olan "ASAN xidmət" mərkəzlərinin fəaliyyətə başlaması dövlət qulluqçularının fəaliyyətində əhaliyə münasibətdə vətəndaş məmnunluğunun təmin edilməsi istiqamətində yeni yanaşma modelidir.*



Prezident İlham Əliyevin çoxşaxəli islahatlarından olan dövlət xidmətlərinin şəffaf, operativ və əlçatan təşkili ilə bağlı müəllifi olduğu "ASAN xidmət" konsepsiyasıdır. Bu model vətəndaş maraqlarına xidmət edir və yeni dövrün çağırışlarından irəli gələn xidmət sektorunda qabaqcıl innovasiyaların tətbiqidir. Bu gün Azərbaycan brendi olan "ASAN xidmət" "vahid məkan" prinsipi əsasında fəaliyyət göstərir. "ASAN xidmət" mərkəzlərində vətəndaşlara xidmətin daha yaxşı göstərilməsi üçün yeni üsullardan və müasir innovasiyalardan istifadə olunur ki, bu vətəndaş məmnunluğuna səbəb olub. "Özünəməxsus inkişaf modeli ilə tanınan Azərbaycan, idarəetmə və əhaliyə dövlət xidmətləri göstərilməsi sahəsində də effektiv və çoxşaxəli islahatlar həyata keçirərək, konseptual yeniliklərin müəllifi olmuşdur". Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev "Müasir idarəetməyə gedən yol: dayanıqlı və innovativ dövlət xidmətlərinə doğru" mövzusunda keçirilən beynəlxalq forumun iştirakçılarına ünvanladığı təbrikində bildirib: "Belə unikal təşəbbüslərdən biri "ASAN xidmət" konsepsiyasıdır. Bununla da dövlət orqanları tərəfindən xidmətlər göstərilməsində vətəndaş məmnunluğunun və şəffaflığın təmin edilməsi, korrupsiya hallarının qarşısının alınması, innovativ yanaşmaların və müasir texnologiyaların tətbiq edilməsi, dövlət qulluqçusu - vətəndaş münasibətlərində yeni düşüncə tərzinin formalaşdırılması ideyalarını rəhbər tutan yeni xidmət modeli yaradılmış və bu model özünü uğurla doğrultmuşdur".

### "VƏTƏNDAŞLARIN XİDMƏTLƏRDƏN MƏMNUNLUQ ƏMSALI 99,8% TƏŞKİL ETMİŞDİR"

Vurğulamaq yerinə düşər ki, 29 dekabr 2012-ci ildə Bakıda pilot layihə olaraq ilk "ASAN xidmət" mərkəzinin açılışı oldu. Mərkəz doqquz dövlət orqanının təklif etdiyi 23 xidməti həyata keçirirməklə 15 yanvar tarixində fəaliyyətə başladı. Həmin tarixdən vətəndaşlara yüksək keyfiyyətli xidmətlər göstərilir və ölkəmizin bir çox yerlərində mərkəzlərin sayı durmadan artır. Bildiyimiz kimi, 3 may 2013-ci ildə "Asan xidmət"in Sumqayıt mərkəzinin açılışı oldu. Bundan bir neçə gün sonra, mayın 24-də Bakıda ikinci "ASAN xidmət" mərkəzinin açılışı həyata keçirildi. Bakıda üçüncü mərkəzin açılışı isə 17 sentyabr 2013-cü ildə baş tutdu. Daha sonra Bərdədə, Bakıda, Masallı və Qəbələdə, Qubada, Mingəçevirdə, İmişlidə və Şəkidə, Şamaxıda, Kürdəmir, Tovuz, Ağcabədi, Balakənd və digər yerlərdə "ASAN xidmət" mərkəzləri fəaliyyətə başladı. Cənab Prezidentin məktubunda qeyd olunur ki, bu gün "ASAN xidmət" mərkəzlərində - vahid məkanda müxtəlif dövlət qurumları, həmçinin özəl şirkətlər tərəfindən ümumilikdə 360-dan çox xidmət göstərilir: "Fəaliyyəti dövründə "ASAN xidmət" 60 milyona yaxın müraciət üzrə dövlət xidmətləri göstərilməsini təmin etmişdir. Keçirilən rəy sorğularına əsasən, vətəndaşların xidmətlərdən məmnunluq əmsalı 99,8% təşkil etmişdir".

### VƏTƏNDAŞLARIN RAHATLIĞININ TƏMİNATI VƏ ŞƏFFAF XİDMƏT

2013-cü ilin iyunun 1-dən etibarən, artıq "ASAN xidmət"in təklif etdiyi xidmətlərdən istifadə etmək üçün mərkəzlərə gələ bilməyən vətəndaşlara xidmət göstərmək üçün zəruri müasir texnoloji avadanlıqlarla təchiz olunmuş səyyar avtobuslardan istifadə olunur. Azərbaycan Respublikası Prezidenti Cənab İlham Əliyevin tapşırığısasında "ASAN xidmət" mərkəzlərinin olmadığı regionlarda vətəndaşların dövlət xidmətləri ilə təmin edilməsi üçün müasir texniki avadanlıqla təchiz olunmuş səyyar "ASAN qatar" konsepsiyası da reallaşdırılıb. Bütün bunlar vətəndaşların rahatlığının təminatında, onlara şəffaf və nəzakətli xidmətin göstərilməsinin əsas faktorlarıdır. Diqqətə çatdıraq ki, dövlət başçısının 2016-cı ilin mayında imzaladığı Fərmanla "ASAN kommunal" mərkəzlərinin yaradılması Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə tapşırılmışdı və qısa müddətdə "ASAN kommunal" xidmətinin yaradılması üçün aidiyyəti qurumlarla bir yerdə tədbirlər həyata keçirildi. "ASAN kommunal" mərkəzlərində Azəriqaz, Azərsu, Azərişıq şirkətlərinin 40-dan artıq növ kommunal xidmətləri göstərilir.

### "ASAN XİDMƏT" AZƏRBAYCAN BRENDİNƏ ÇEVRİLMİŞDİR"

Azərbaycan brendi olan "ASAN xidmət" mərkəzləri beynəlxalq mükafatlara layiq görülüb. Bu gün "ASAN xidmət"in fəaliyyəti Avropa İttifaqında, Avropa Parlamentində, Böyük Britaniya parlamentində, Fransa, Almaniya və digər ölkələrdə yüksək qiymətləndirilir. Özünəməxsus hüquqi strukturu olan bu model bir çox beynəlxalq qurumlar və ekspertlər tərəfindən təqdirəlayiq hesab olunur. Artıq Azərbaycanın "ASAN xidmət" modeli əsasında Əfqanıstanda dövlət xidmətlərinin göstərilməsi sahəsində eyniadlı qurum təsis edilib. Bundan başqa, İtaliya, Koreya Respublikası, Fransa, İndoneziya, Monteneqro və ISESCO təşkilatı ilə əməkdaşlığa dair Anlaşma memorandumları imzalanıb. Bu illər ərzində xidmət bir neçə beynəlxalq dərəcəli sertifikata layiq görülüb, Britaniya Əməyin Mühafizəsi Şurası tərəfindən beynəlxalq müsabiqənin qalibi olub. Məktubda qeyd olunduğu kimi, "Bu uğur həm ölkə vətəndaşlarının müsbət rəyində, həm də beynəlxalq səviyyədə göstərilən maraq və münasibətdə özünü təcəssüm etdirir: "ASAN xidmət" təcrübəsi artıq bir sıra ölkələrdə tətbiq edilir. 2015-ci ildə Birləşmiş Millətlər Təşkilatının Dövlət xidmətləri mükafatına, 2019-cu ildə isə Rəqəmsal idarəetmənin tətbiqi ilə dövlət xidmətlərinin inkişafı sahəsində xüsusi mükafatına layiq görülən "ASAN xidmət" Azərbaycan brendinə çevrilmişdir. "Dövlət Xidmətləri Göstərən Qurumların ASAN Beynəlxalq Assosiasiyası" yaradılmış, ICESCO-ya üzv olan dövlətlərdə və Afrika ölkələrində dövlət xidmətləri sahəsində müvafiq beynəlxalq təşkilatlarla birgə ASAN mükafatları təsis olunmuşdur. BMT-nin İnsan Hüquqları Şurası "Dövlət xidmətlərinin şəffaf, məsuliyyətli və səmərəli çatdırılması vasitəsilə insan hüquqlarının və Davamlı İnkişaf Məqsədlərinin təşviqi" adlı qətnamə qəbul edərək, beynəlxalq təşkilatları "ASAN xidmət"in uğurlu təcrübəsini təşviq etməyə çağırmışdır".



"ASAN xidmət" öz fəaliyyətini genişləndirir, həm coğrafi əhatə, həm də xidmətlərin sayı artır. Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın təşəbbüsü və Prezident İlham Əliyevin 2018-ci ildə imzaladığı Fərmanla Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində yaradılan DOST Mərkəzlərində əhaliyə pensiya, sosial sığorta, sosial müavinət, əlillik, əmək və məşğulluq, övladlığa götürmə, bank, notariat, həmçinin Tibbi Sosial Ekspertiza sahələri üzrə 100-dən artıq xidmət göstərilir. Qeyd edək ki, 4 Saylı "DOST" Mərkəzinin tərkibindəki "Çağrı Mərkəzi" ölkə üzrə gündəlik 5 minədək zəng qəbuluna şərait yaradır. Bütün bunlar dövlət sosial xidmətlərinin innovativ yanaşmalara əsaslanan modern, çevik və optimal mexanizmlər üzərində qurulmasını özündə ehtiva edir. Təbii ki, DOST mərkəzləri də daha geniş miqyasda keyfiyyətli sosial xidmətlərin həyata keçirilməsinə geniş imkanlar yaradır. Cənab Prezidentin məktubunda o da vurğulanır ki, "ASAN xidmət" konsepsiyasının gətirdiyi digər bir yenilik xidmətin fəaliyyətə başladığı ilk gündən könüllülərin cəlb edilməsi olmuşdur: "Könüllülər öz müsbət enerjiləri və müasir dünyagörüşləri ilə vətəndaşlara xidmət sahəsinə yeni nəfəs gətirmiş, beləliklə də Azərbaycanda könüllülük hərəkatı geniş vüsət almış və hazırda ictimai həyatın bütün sahələrində öz səmərəsini göstərməkdədir". Azərbaycanda həyata keçirilən sosial siyasətin əsas məqsədləri əhaliyə göstərilən xidmətlərin keyfiyyətinin artırılması və əhalinin rifah səviyyəsinin yüksəldilməsidir. Bu istiqamətdə aparılan islahatlar, görülən işlər təqdirəlayiqdir və hər bir Azərbaycan vətəndaşı tərəfindən rəğbətlə qarşılanır. Çünki dövlətimiz vətəndaşının mənafeyinə xidmət edir.




**Zümrüd BAYRAMOVA**

***Dünən Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin növbəti plenar iclası keçirilib. Komitə sədri Siyavuş Novruzov, deputatlardan Razi Nurullayev, Azay Quliyev, Sabir Rüstəmxanlı, Əli Məsimli, Tural Gəncəliyev, Rəşad Mahmudov, Şahin İsmayılov, Məlahət İbrahimqızı son günlər ərzində Şuşa-Laçın yolunda Azərbaycan vətəndaş cəmiyyəti nümayəndələrinin və ekologiya fəallarının həyata keçirdiyi etiraz aksiyası ilə bağlı fikirlərini açıqlayıblar, aksiya iştirakçılarının mövqeyini dəstəklədiklərini bildiriblər. Millət vəkilləri ekoloqların bu ərazilərdə monitorinq keçirməsinə maneçilik törədilməsini pisləyərək qeyd ediblər ki, Azərbaycanın təbii sərvətlərinin qeyri-qanuni istismarına son qoyulmalıdır.***

# Milli Məclis "Siyasi partiyalar haqqında" yeni qanun layihəsini təsdiqlədi

Ermənistanın bu dinc aksiyanı təhrif olunmuş şəkildə beynəlxalq ictimaiyyətə çatdırdığını deyən deputatlar, bu aksiyanı Azərbaycan xalqının erməni tərəfinin davam etdirdiyi təxribatlara, talançılığa və sülhməramlıların fəaliyyətinə narazılığının ifadəsi kimi dəyərləndiriblər.

Sonra Milli Məclisin sədri Sahibə Qafarova son iki gündə parlamentdə mühüm mövzularla bağlı dinləmələrin keçirildiyini diqqətə çatdırıb. O, bu dinləmələrdə deputatların, QHT nümayəndələrinin, ekspertlərin iştirak etdiyini bildirib və dinləmələr barədə məlumat vermək üçün müvafiq komitələrin sədrlərinə söz verib.

Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova parlamentin sədri Sahibə Qafarovaya bu cür dinləmələrin keçirilməsi üçün yaratdığı imkana və dəstəyə görə təşəkkürünü ifadə edib. O, rəhbərlik etdiyi komitənin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi ilə birgə "Qanunvericilikdə qadın sahibkarlığı: imkan və perspektivlər" mövzusunda keçirdiyi dinləmənin əhəmiyyətindən danışıb, tədbirdə qadın sahibkarların iştirak etdiyini deyib.

Sonra çıxış edən İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili dinləmələrin səmərəli keçdiyini söyləyib. O, Azərbaycan qanunvericiliyində sahibkarlıqda qadın və kişiyə fərq qoyulmadığını, gender bərabərliyinin qanun səviyyəsində təmin edildiyini söyləyib. Komitə sədri tədbirin həm qanunvericilikdə sahibkarlar üçün olan yeniliklərin diqqətə çatdırılması, həm də sahibkarların təkliflərinin, o cümlədən qadınların iqtisadi vəziyyətinin daha da yaxşılaşdırılması ilə bağlı qeydlərinin dinlənilməsi baxımından əhəmiyyətli olduğunu bildirib. Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev rəhbərlik etdiyi komitə ilə Elm və Təhsil Nazirliyinin "Dövlət ümumi təhsil müəssisələrində işləyən təhsilverənlərin sertifikatlaşdırılması" mövzusunda keçirdiyi birgə ictimai dinləmə barədə məlumat verib. O, müəllimlərin hər zaman dövlətin diqqət mərkəzində olduğunu deyib.

Sonra parlamentin sədri Sahibə Qafarova gündəlikdə 25 məsələnin olduğunu diqqətə çatdırıb. Bildirib ki, birinci məsələ - "Demokratiya və İqtisadi İnkişaf naminə Təşkilat - GUAM iştirakçısı olan dövlətlərin konsulluq məsələlərində qarşılıqlı yardım göstərilməsi haqqında" Konvensiyanın təsdiq edilməsi barədə qanun layihəsidir. "Normativ hüquqi aktlar haqqında" Konstitusiya qanununun tələblərinə əsasən, qanun layihəsi beynəlxalq sənədlə bağlı olduğuna görə bir oxunuşda baxılıb, qəbul ediləcək.

Məsələ barədə Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva məlumat verib. O, bildirib ki, Konvensiya 2022-ci il sentyabrın 20-də Nyu-York şəhərində imzalanıb. Sənəd 13 maddədən və 2 əlavədən ibarətdir. Konvensiyanın məqsədi iştirakçı dövlətlər arasında konsulluq sahəsində əməkdaşlığı gücləndirmək və öz vətəndaşlarının maraqları naminə üçüncü ölkənin ərazisində onların qanuni hüquq və maraqlarının müdafiəsi sistemini təkmilləşdirməkdir. Komitə sədri Bəxtiyar Əliyev və deputat Hikmət Məmmədov məsələ ilə bağlı fikirlərini açıqladıqdan sonra qanun layihəsi səsə qoyularaq bir oxunuşda qəbul edilib.

Parlamentin sədri Sahibə Qafarova diqqətə çatdırıb ki, gündəliyin növbəti 3 məsələsi üçüncü oxunuşda olan qanun layihələridir.

Sonra Milli Məclis sədrinin müavini, parlamentin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fəzail İbrahimli "Siyasi partiyalar haqqında" Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş) barədə məlumat verib. O bildirib ki, qanun layihəsinin məqsədi bu gün Azərbaycan cəmiyyətində mövcud olan siyasi partiyaların fəaliyyətinin tənzimlənməsi, onların cəmiyyətdə yerinin və rolunun müəyyən edilməsindən ibarətdir. Qeyd edilib ki, sənədin hazırlanması zamanı Azərbaycanda mövcud siyasi sistemin bütün xüsusiyyətləri və Avropa dövlətlərinin bu sahədə təcrübəsi nəzərə alınıb. Eyni zamanda, beynəlxalq təşkilatların rəylərinə riayət olunub.

Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Siyasi partiyalar haqqında" qanun layihəsi ilə bağlı bildirib ki, ikinci oxunuş zamanı 16 deputat çıxış edib, bir neçə deputat isə yazılı şəkildə öz təkliflərini təqdim edib. O, bu deputatlarla işçi qaydasında görüşlərin keçirildiyini və bütün təkliflərin dəyərləndirildiyini söyləyib.

Əli Hüseynli təkliflərin bir hissəsinin qanunun Konstitusiyaya uyğunluğu ilə bağlı məsələlər olduğunu deyib. Habelə, qanunun icrası ilə əlaqədar yarana biləcək çətinliklərlə bağlı məsələlərin qaldırıldığını, buna dair mütəxəssislərin aparıldığını və qanun layihəsinə bir sıra dəyişikliklərin edildiyini bildirib. O, diqqətə çatdırıb ki, dəyişikliklərə əsasən, siyasi partiya orqanlarının anlayışı verilən 1.1.4-cü maddədə və 12 - 17-ci maddələrdə "icra orqanı" ifadəsi "qurultaylararası kollegial idarəetmə orqanı" ifadəsi ilə əvəz edilir. Habelə, reyestrdə siyasi partiyalara ianə verən şəxslər və digər hallarda onların fərdi identifikasiya nömrəsinin tələb olunması ilə bağlı narahatçılığa dair məsələnin də araşdırıldığı və bununla əlaqədar olaraq qanunun 5.3, 20.10 və 23.2.7-ci maddələrindən bu tələbin çıxarıldığı bildirilib. Sənədə qanunvericilik texnikası və digər qanunlarla uyğunlaşdırma ilə bağlı edilən digər düzəlişlər də nəzərə çatdırılıb.

Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc qanun layihəsinin beynəlxalq tələblərə uyğun hazırlandığını və demokratik müddəaları özündə ehtiva etdiyini bildirib. Komitə sədri Siyavuş Novruzov və deputat Sabir Rüstəmxanlı məsələ barədə fikirlərini səsləndiriblər. Sonra "Siyasi partiyalar haqqında" qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında (üçüncü oxunuş) qanun layihəsini təqdim edərək sənədə hər hansı rəy və təklifin daxil olmadığını deyib. Layihədə dayanma və ya durma qaydalarının pozulması ilə bağlı bütün növ inzibati xətalara görə məsuliyyətin elektron qaydada tərtib edilən qərarlar əsasında müəyyən edilməsi qaydası nəzərdə tutulur. Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.



Deputat Kamal Cəfərov "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi (üçüncü oxunuş) barədə də məlumat verib. O, bu qanun layihəsinə də hər hansı bir dəyişikliyin olmadığını deyib. Deputat Tahir Kərimli məsələ ilə bağlı bəzi qeydlərini bildirdikdən sonra, qanun layihəsi üçüncü oxunuşda qəbul olunub.

Sonra Sahibə Qafarova diqqətə çatdırıb ki, gündəliyin 5-ci məsələsindən başlayaraq növbəti 11 məsələ ikinci oxunuşda olan qanun layihələridir.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nurlan Həsənov Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin 10 illiyi (2012-2022)" Azərbaycan Respublikasının yubiley medalının və "ASAN xidmət" ilə səmərəli əməkdaşlığa görə" Azərbaycan Respublikasının medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) təqdim edib. Bildirib ki, layihəyə əsasən, adı çəkilən hər iki medal "ASAN xidmət"in yaradılmasının 10 illiyi münasibəti ilə təsis edilir. Qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) diqqətə çatdırıb. O qeyd edib ki, layihə 2023-cü il yanvarın 1-dən etibarən 2 il müddətinə təhsil müəssisələri tərəfindən idxal olunan avadanlıq, qurğu və cihazların gömrük rüsumundan azad edilməsini özündə ehtiva edir. Qanun layihəsi ikinci oxunuşda səsə qoyularaq qəbul edilib.

Sonra komitə sədri Tahir Mirkişili növbəti iki məsələni - "Valyuta tənzimi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (ikinci oxunuş), "Banklar haqqında", "Poçt haqqında", "Fərdi məlumatlar haqqında" qanunlarda və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihələrini təqdim edib. Bildirib ki, hər iki qanun layihəsi ölkədə valyuta əməliyyatlarına nəzarəti artırmaq üçün valyuta vahid informasiya sisteminin yaradılması, bu informasiya sisteminə məlumatların daxil edilməsi və onlardan istifadə olunması ilə bağlı qaydaları özündə əks etdirir.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli İnzibati Xətalar Məcəlləsinə təklif olunan uyğunlaşdırma xarakterli dəyişikliyə bu komitənin müsbət rəy verdiyini bildirib. Hər iki qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Daha sonra "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihəsi, "Qaz təchizatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş), Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində və "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş), Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında (ikinci oxunuş) və Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında (ikinci oxunuş) qanun layihələri, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında (ikinci oxunuş) və Azərbaycan Respublikasının Mənzil Məcəlləsində dəyişiklik edilməsi haqqında (ikinci oxunuş) qanun layihələri, "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" (birinci oxunuş), 17-ci məsələ olan "Hədəfli maliyyə sanksiyaları haqqında" (birinci oxunuş), 18-ci məsələ olan Cinayət Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında (birinci oxunuş), 19-cu məsələ olan Mülki Prosessual və Cinayət-Prosessual məcəllələrində dəyişiklik edilməsi haqqında (birinci oxunuş) və 20-ci məsələ olan Mənzil Məcəlləsində, "Valyuta tənzimi haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Banklar haqqında", "Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Sığorta fəaliyyəti haqqında", "İnvestisiya fondları haqqında", "Qiymətli kağızlar bazarı haqqında" və "Nağdsız hesablaşmalar haqqında" qanunlarda dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihələri, "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş), "Əmək pensiyaları haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) səsə qoyularaq qəbul edilib.

Təhlil

# Dövlətimiz diaspor quruculuğuna, lobbiçiliyə, həmrəyliyə önəm verir

*Xalqının taleyində müstəsna rol oynayan, milli, eləcə də mənəvi birliyə xidmət edən tarixi şəxsiyyətlər həmrəyliyi, birliyi təmin etməklə xalqını qələbələrə, işıqlı gələcəyə aparırlar və yaddaşlarda əbədi yaşayırlar. Həmin tarixi şəxsiyyətlər xalqı öz ətrafında birləşdirməklə, milli ideyalar uğrunda səfərbər etməklə ən çətin vəziyyətdən çıxmaq üçün düzgün, doğru yolu göstərirlər və cəmiyyətin inkişafına böyük töhvələr verirlər. Məhz Ulu Öndər Heydər Əliyev və onun layiqli davamçısı, cənab Prezident İlham Əliyev öz xalqını qələbələrə, işıqlı gələcəyə aparan, cəmiyyətin inkişafına saysız-hesabsız töhvələr verən şəxsiyyətlərdir.*








Qeyd olunduğu kimi, tarixi şəxsiyyətlər xalqı qələbələrə milli birlik, həmrəylik sayəsində aparırlar və bunun üçün birliyimizə nail olmağı ən ümdə vəzifə hesab edirlər. Biz bu həmrəyliyin, milli birliyin sayəsində nələrin əldə olunduğunun dəfələrlə şahidi olmuşuq. İstər ötən əsrin sonlarında daxili çəkişmələrin aradan qaldırılmasında, yenidən müstəqilliyi bərpa edilən Azərbaycanın dövlətçilik əsaslarının möhkəmləndirilməsində, istərsə də 30 ilə yaxın müddət ərzində erməni terrorçuları tərəfindən işğal altında saxlanılan torpaqlarımızın işğaldan azad edilməsində milli birliyin, həmrəyliyin nəyə qadir olduğunu və nə qədər vacib olduğunu gördük. Məhz ötən əsrin sonlarında da, elə ondan sonrakı dövrdə də dünyada yaşayan bütün azərbaycanlıların birliyinin nə dərəcədə vacib, aktual olduğu hər zaman öz təsdiqini tapmış oldu və məhz diaspor quruculuğunun, lobbiçiliyin labüdlüyü hər bir zaman kəsiyində prioritet olaraq qəbul olundu.

Xatırladığımız kimi, ötən əsrin sonlarında öz müstəqilliyini yenicə bərpa edən, hələ möhkəmlənməyən Azərbaycana qarşı düşmən qüvvələr baş qaldırmışdılar. Hər birinin də məqsədi bəlli idi və ölkəmizi parçalamaq onlar üçün ən vacib məsələ hesab olunurdu. Bunun üçün də müxtəlif istiqamətlərdə öz çirkin niyyətlərini ortaya qoymuşdular. Etnik qarşıdurmalara, toqquşmalara səbəb olacaq bütün əməllərə əl atanlar xalqımızı parçalamaq, yenicə müstəqilliyini bərpa edən dövlətimizi sarsıtmaq niyyəti güdürdülər. Vəziyyəti az qala vətəndaş müharibəsi həddinə gətirib çıxaranlar bulanıq suda balıq tutmaq, daha dəqiq desək, bundan bəhrələnmək həvəsində idilər. Bir çoxları bu qarşıdurmaların fonunda vəzifə bölgüsü ilə məşğul idilər və xalqının, dövlətinin mövcud halı onları qətiyyən maraqlandırmırdı. Heç bir birlik olmadığı bir zamanda düşmən qüvvələr, ələlxüsus erməni separatçıları, Qarabağ klanı öz çirkin niyyətlərini həyata keçirmək üçün münbit şərait tapmışdılar və torpaqlarımızın 20 faizi də məhz buna görə işğala məruz qaldı. Bədnam qonşularımız birliyimizin, həmrəyliyimizin olmamasından istifadə edərək namərdcəsinə üstümüzə hücum çəkdilər və öz işğalçılıq niyyətlərini gerçəkləşdirə bildilər. O dövrün səriştəsiz hakimiyyəti bunun qarşısını ala bilmədi, çünki birliyimizə, həmrəyliyimizə nail olmadan bunu etmək mümkün deyildi.

Həmin zaman, ölkəmizin elə keşməkeşli dövründə xalqın təkidli tələbi ilə Ulu Öndər Heydər Əliyev yenidən hakimiyyətə qayıtdı və məhz ilk növbədə parçalanmaların, toqquşmaların qarşısını almaqla, həmrəyliyimizi, birliyimizi bərpa etməklə problemli məsələlərin köklü şəkildə həllinə nail oldu. Xalqımız öz Liderinin ətrafında birləşdi və birliyimiz, həmrəyliyimiz sayəsində ən çətin problemlərin öhdəsindən gəlindi. Davam etməkdə olan erməni işğalının qarşısı alındı, atəşkəs elan olundu, sabitlik bərpa edildi, bugünkü qələbələrimizi təmin edəcək iqtisadi inkişaf yolunun təməli qoyuldu, cəmiyyətimizin bütün sahələr üzrə inkişafı istiqamətində əsaslı addımlar atıldı. Bütün bunlar isə, təbii ki, birliyimiz, həmrəyliyimiz sayəsində reallaşdırıldı.

Birliyin, həmrəyliyin nəyə qadir olduğunu nəzərə alan Ulu Öndər Heydər Əliyev xarici ölkələrə səfərləri zamanı həmin ölkələrdə yaşayan azərbaycanlılarla görüşür, söhbətlər aparır, onlara tövsiyə edirdi ki, harada yaşamasından, harada məskunlaşmasından asılı olmayaraq onlar bir-birləri ilə əlaqəni kəsməsinlər. Əksinə, onlara təşkilatlanmaq, bir olmaq tövsiyə olunurdu. Məhz dahi liderin bu tövsiyyələri, göstərişləri dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar tərəfindən xoş qarşılandı və diaspor yaranmağa başladı, diaspor quruculuğuna başlanıldı. Bu baxımdan da cəsarətlə deyə bilərik ki, diaspor quruculuğu, lobbiçilik Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Bu gün dünyanın bir çox ölkələrində yaşayan azərbaycanlıların təşkilatlanmasının, Azərbaycan diasporlarının yaradıcısı və banisi elə məhz Ümummilli Lider Heydər Əliyevdir desək hər birimiz haqlıyıq.

Bilirik ki, erməni təbliğat maşını Azərbaycan əleyhinə yalan, təhrif olunmuş, feyk məlumatları yaymaq üçün hər zaman işləyib və xüsusən də ölkəmiz öz müstəqilliyini yenicə bərpa etdiyi dövrdə bu fəaliyyətləri bütün dünyada heç bir maneə ilə qarşılaşmayıb. Məhz dünyada Azərbaycan diasporlarının, lobbilərinin yaranması ilə onların fəaliyyətləri məhdudlaşdırıldı, dezinformasiyaları ifşa edildi ki, bununla da həmin təbliğat maşını ermənilərə istədikləri nəticəni verə bilmədi. Artıq diasporlar, lobbiçilik fəaliyyətə başlamaqla erməni yalanları, eləcə də Azərbaycan həqiqətləti bütün dünyaya çatdırıldı və hayların uydurmalarının, yalanlarının ayaq tutub yeriməsinin qarşısı alındı. Bütün dünya Azərbaycanın haqlı olduğunu, erməni separatizmi tərəfindən işğala məruz qaldığı barədə məlumatlandırıldı, hansıki artıq ölkəmizin haqlı maraqları dünya miqyasında müdafiə edilməyə başlanıldı.

Düşmənə layiqli cavab vermək üçün iqtisadi inkişaf, güclü dövlət quruculuğu, maddi imkanlar, silah-sursat, hərbi texnika, eləcə də hərbi potensial nə qədər vacib hesab olunursa, birliyimiz və həmrəyliyimizin, diasporların, lobbiçiliyik fəaliyyətinin də bir o qədər önəmli olduğu öz təsdiqini hər zaman tapmış oldu. Elə 2020-ci il 44 günlük müharibə dönəmində də bunun şahidi olduq. Şahidi olduq ki, xalqımız birləşərək bir yumruq, "Dəmir yumruq" olub düşmənin başını ən qısa zamanda əzdi. Birliyimizə, həmrəyliyimizə nəinki Ohanyan səddi, ümumilikdə, dünyada olan erməni cəmiyyəti belə maneə yarada bilmədi. Məhz birliyimiz, həmrəyliyimiz sayəsində düşməni öz torpaqlarımızdan qovduq, onları diz çökməyə, təslimçilik sənədini, kapitulyasiya aktını imzalamağa vadar etdik. Bu birliyimizə, həmrəyliyimizə məhz Ulu Öndərin layiqli davamçısı, Ali Baş Komandan, cənab Prezident İlham Əliyevin sayəsində nail olduq. Xalqına güvənən Ali Baş Komandanın bir çağırışı ilə bir yumruğa, "Dəmir yumruğa" döndük və bütün dünya bunun şahidi oldu. Şahidi oldu ki, Azərbaycan Prezidenti xalqının birliyini, həmrəyliyini təmin edərək, tez bir zamanda mükəmməl qələbəyə imza atdı.

Elə 44 günlük müharibə dönəmində Azərbaycan diasporunun, lobbisinin də rolunu hamı gördü. Ölkəmiz əleyhinə dünyanın bir çox ölkələrində, ələlxüsus həmin ölkələrin səfirlikləri qarşısında aksiya keçirən erməni təşkilatlanmasına da qarşısına məhz Azərbaycan diasporu çıxdı. Diasporlarımız erməniləri yerindəcə susdurdular və məhz Azərbaycanın haqlı tərəf olduğunu bütün dünyaya bəyan etdilər. Erməni hədsizliyinin, erməni yalanlarının yerindəcə, yubanmadan qarşısı alındı və ölkəmizin ədalətli mövqeyi, haqlı mübarizəsi dünya ictimaiyyətinə çatdırıldı. Məhz elə buna görə də Ali Baş Komandan, cənab prezident İlham Əliyevin diasporlarımızın fəaliyyətini yüksək qiymətləndirməsi təsadüfi deyil. Bu gün erməni diasporları Ermənistana maddi yardımlar, müxtəlif iyanələr göndərdikləri halda, Azərbaycan dövləti xarici ölkələrdə fəaliyyət göstərən diaspor təşkilatlarına öz yardımını, hətta maddi təminatını belə əsirgəmir. Bütün bunlar ölkə rəhbərimizin, dövlətimizin diaspor quruculuğuna, lobbiçilik fəaliyyətinə önəm verdiyinin və qayğı ilə yanaşdığının bariz nümunəsidir.

***İnam Hacıyev***

# "Şuşanın Türk dünyasının mədəniyyət paytaxtı elan olunması səbəbsiz deyil"

"44 günlük Vətən müharibəsindən sonra düşmən tapdağında olan torpaqlarımız azad olundu. Xüsusi ilə Şuşa şəhərinin azad olunması xalqımızda böyük iftixar hissi yaratdı". Bu sözləri S?A-ya açıqlamasında politoloq Elşad Həsənov deyib. Onun sözlərinə görə, Prezident qeyd etdi ki, torpaqlarımızı azad etdik amma ən əsası da Şuşanı azad edə bildik. Şuşanın azad olunması isə xalqımızda çox gözəl əhval-ruhiyyə yaratdı. Şuşa cənab Prezident İlham Əliyevin sərəncamı əsasında azad olunduqdan sonra mədəniyyət paytaxtı elan edildi. Doğurdan da bu qədim şəhər mədəniyyətimizin paytaxtıdır. Çünki oradan dahi Üzeyir Hacıbəyov, Xan Şuşinski kimi və daha neçə azərbaycanlı dahi sənətkarlarımız çıxıb.

Şuşanı işğaldan azad etdiyimiz gündən başlayaraq orada yenidən tikinti-quruculuq işləri görülməyə başlanılıb. Bir şeyi qeyd etməyi vacib bilirəm ki, orada aparılan hər bir tikinti-quruculuq işi Prezident İlham Əliyevin nəzarəti altında aparılır. Çünki bu dünyanın tikintiyə dair son nümunələrinə və tapıntılarına uyğun olaraq orada yenidənqurma, yenidən tikinti meydançası yaradılıb. Ona görə də bu saat əhalinin oraya köçürülməsi gündəmdə deyil. Şuşanı əvvəlkindən də daha gözəl bir məkana çevirmək üçün işlər görülür. Administrativ binalar, otellər, muzeylər yenidən bərpa olunur. 2023-cü ilin Şuşanın Türk dünyasının mədəniyyət paytaxtı elan olunması da səbəbsiz deyil. Çünki orada Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan müttəfiqlik müqaviləsi imzaladılar. Bundan sonra da Azərbaycanla Türkiyənin qardaşlığı daha da irəlilədi. Buranın önəmi daha da artdı. Sonrakı dövrlərdə də Türk dövlətlərinin birliyinin təşkilatında bu




məsələlər bir neçə dəfə müzakirə olundu və Şuşa şəhəri 2023-cü il Türk dünyasının mədəniyyət paytaxtı elan olundu. Burada da inşallah böyük mədəni tədbirlər keçiriləcək. Şairlərin yaradıcılıq gecələri, musiqi festivalları, türk xalqlarının rəqs nömrələri nümayiş olunacaq".

***Ziya Hikmət oğlu***

# Monitorinq aparılması ilə bağlı razılıq əldə olunub



***2022-ci il dekabrın 3-də və 7-də Rusiya sülhməramlı kontingentinin komandanlığı ilə aparılmış müzakirələrin nəticəsi olaraq Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti və "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin mütəxəssislərindən ibarət heyət Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarı, bundan irəli gələn ekoloji və digər fəsadlarla bağlı ilkin monitorinq aparılması ilə bağlı razılıq əldə olunub. SİA xəbər verir ki, lakin sülhməramlıların komandanı 10 dekabr 2022-ci ildə əldə olunan razılığı kobud şəkildə pozaraq monitorinqin keçirilməsinə maneə yaratmış və beləliklə, monitorinq baş tutmamışdı.***

Azərbaycanın qeyri-hökumət təşkilatları, ekoloqları və vətəndaş cəmiyyəti fəalları Rusiya sülhməramlılarının bu hərəkətinə, eyni zamanda ölkəmizin təbii resurslarının, xüsusilə qızıl və mis yataqlarının qanunsuz istismarına və talan olunmasına, həmçininhəmin ərazilərdə baş verən ekoloji terrora etiraz olaraq artıq 5 gündür ki, Xankəndi-Laçın yolunda dinc aksiya keçirir.

Aksiya iştirakçılarının tələbi çox sadədir: Azərbaycanın təbii sərvətlərinin qanunsuz istismarına və talanmasına son qoyulsun!; bu ərazilərdə törədilən ekoloji terror dayandırılsın və həmin ərazilərin monitorinqinə şərait yaradılsın!

Bundan başqa, dekabrın 14-də Ermənistan silahlı qüvvələri tərəfindən işğaldan azad olunmuş Kəlbəcər ərazisində basdırılan mina partlayışı nəticəsində 7 nəfər soydaşımızın yaralanması və 1 nəfər hərbiçimizin şəhid olması aksiya iştirakçılarının tələblərinin genişlənməsinə səbəb oldu. Hazırda, ölkə QHT-ləri Ermənistanın Laçın yolu vasitəsilə Azərbaycanın suveren ərazisinə qanunsuz silah-sursatın və hərbidəstələrin daşınmasına, milli sərvətlərimizin ölkədən çıxarılmasına və mina terroruna son qoyulmasını tələb edirlər.

Təəssüflər olsun ki, Ermənistan və erməni lobbisi Azərbaycan QHT-lərinin dinc aksiyasının mahiyyətini bilərəkdən təhrif etməyə, məsuliyyətdən yayınmaq məqsədilə beynəlxalq ictimaiyyəti aldatmağa çalışır və Xankəndi-Laçın yolunda baş verən hadisələrlə bağlı yalan və böhtan kampaniyası aparırlar.

Ermənistan siyasi rəhbərliyi və erməni seperatçıları aksiya iştirakçılarının guya Laçın yolunu bağlayaraq Xankəndində və ətraf ərazilərdə yaşayan ermənilərin blokadaya alınması, onların humanitar fəlakətə və ya etnik təmizləməyə məruz qalması, təbii qaz nəqlinin dayandırılması haqqında beynəlxalq təşkilatlara və xarici ölkələrə həqiqətə uyğun olmayan müraciətlər edirlər.

Tam məsuliyyət hissi ilə bəyan edirik ki, bu məlumatların heç bir əsası yoxdur, hamısı yalan və böhtandır. Bu yalanlara cavab olaraq diqqətinizə onu da çatdırırıq ki, QHT-lər və ekoloqlar Laçın yolunda nəqliyyatın və insanların sərbəst hərəkətinə hər hansı bir məhdudiyyət yaratmayıb, Rusiya sülhməramlılarının nəqliyyat vasitələrinin və humanitar yüklərin sərbəst hərəkəti buna əyani misaldır.

Qarabağda yaşayan ermənilərin təbii qazla və ərzaqla təmin olunmasında da onların bu gün etiraf etdiyi kimi heç bir problem yoxdur. Bundan başqa, Azərbaycan dövləti bu ərazidə yaşayan erməni əsilli vətəndaşların bütün ehtiyaclarını qarşılamağa hazır olduğunu da bəyan edib.

Ermənistanın siyasi rəhbərliyinin QHT-lərin Azərbaycanın təbii resurslarının qanunsuz istismarının dayandırılması, ekoloji terrora son qoyulması və həmin ərazilərdə monitorinqin aparılması kimi sivil və beynəlxalq humanitar qanunlarla müdafiə olunan legitim tələblərinə bu cür əsassız reaksiyası və beynəlxalq ictimai rəyi manipulyasiya etmək cəhdi qəbuledilməzdir və belə çirkin kampaniyanın təşkili onlarınməsuliyyətdən yayınmaq istəyindən xəbər verir.

Hesab edirik ki, Ermənistan Azərbaycana qarşı ərazi iddialarından əl çəkməli, 10 noyabr 2020-ci ildə imzalanmış Üçtərəfli Bəyannamənin bütün bəndlərinə əməl etməli, xüsusilə qanunsuz silahlı qüvvələrinin qalıqlarını Azərbaycandan çıxarmalı, təbii resursların qanunsuz istismarını dayandırmalı və ekoloji terrora son qoymalıdır.

Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Müşahidə Şurası olaraq bütün beynəlxalq təşkilatlara, ətraf mühitin və ekologiyanın mühafizəsi ilə məşğul olan xarici ölkə, o cümlədən Ermənistan QHT-lərinə müraciət edir, Azərbaycan QHT-lərinin irəli sürdükləri haqlı tələbləri dəstəkləməyə çağırırıq.



# Bir nazirin monoloqu

**Elçin Bayramlı**

*PARODİYA*

***Pay atonnan! Bu nə qəliz mətndi əə. Yüz dəfə demişəm bu donqiliyə ki, yazanda mürəkkəb cümlələrlə yazma, çox elmi, siyasi, iqtisadi terminologiyadan istifadə eləmə. Həm çoxunu başa düşmürəm, həm də tələffüz edə bilmirəm. Sonra jurnalistlər başlayırlar məni lağa qoymağa ki, bu adam kolxoznikdir, niyə nazir işləyir.***

Bu adamı qohumdu deyə işə nahaq götürdüm, bilsəydim küçədə işsiz qalan savadlı kadrlardan birini götürərdim. Bunu da başqa nazirliyə düzəldərdim qarşılıqlı razılıq əsasında, o nazirin də bir qohumunu mən götürərdim işə, qurtarıb gedərdi, heç kim də deyə bilməzdi ki, biz qohumbazlıq edirik...

Tərs kimi bu beynəlxalq konfrans çox ciddi mövzudadır, bütün dünyanın diqqəti burda olacaq. Yaxşı tutaq ki, çıxışın mətnini birtəhər oxudum, amma fasilədə jurnalistlər cumacaqlar üstümə, "spitilni" suallar verəcəklər. Gəl indi vəziyyətdən çıx. Nə ola ağzından bir "quş" buraxasan. Pay atonnan... Bir həftə mətbuatda, sosial şəbəkələrdə rüsvay edəcəklər məni. Bunlar məni qaralayıblar elə, qəzetdə-jurnalda yazırlar ki, bəs 15 ildən çoxdur nazir işləyirsən, artıq qocalmısan, çıx pensiyaya, qoy bir az da gənclər işləsin. Mən ölüm, heç hənanın yeridir?

Əvvəla, məndən də çox nazir işləyən adamlar var, onlara niyə demirsiniz? İkincisi, qoca nöş oluram, Məşədi İbadın sözü olmasın, min cavana dəyərəm. Üçüncüsü də ki, hansı köpəyoğlu könüllü şəkildə belə vəzifədən imtina edər?

Bəzi qəzetlər yazırlar ki, bəs bunun filan yerdə villaları, bahalı maşınları, böyük şirkətləri var. Hələ çoxunu bilmirlər ha, Hind okeanındakı şəxsi adadan, təyyarədən və yaxtadan xəbərləri yoxdur, gör onları da öyrənsələr nə qalmaqal salarlar.

Ay balam, nə istəyirsiniz məndən? İndi deyirsiniz nazir gedib adi fəhləylə eyni binada yaşasın, ictimai nəqliyyatdan istifadə eləsin, eyni restoranda nahar eləsin, eyni sanatoriyada dincəlsin filan?

Bunlara bax haa, mən ölüm, guya mənim uşaqlarım bunlarınkı ilə eyni baxçada, məktəbdə, universitetdə təhsil, tərbiyə almalıdır, bunlar kimi metroya zada minməlidir, ucuz produkt, palçıq kimi zavod çörəyi yeməlidir. Ay siz ölərsiniz... Hərə öz yerini bilməlidir, yoxsa fəhlə də özünü insan saydısa, daha nə oldu?

Gedim kostyum kolleksiyama baxım görüm bir əməlli şey tapa bilirəmmi. Andıra qalmış bir deyil, iki deyil, 50-dən çoxdur. Bax, bu "Pyer Kardin" xoşuma gəlir, keçən dəfə Parisdən 15 minə almışdım, o birilərə baxanda elə də bahalı deyil, amma çox yaraşır mənə.

Bu saatı da belə tədbirlərdə taxa bilmirəm, jurnalstlər nayezd eləyib yaxından çəkirlər, sonra internetə qoyub hay-həşir salırlar ki, bu adam 200 minlik saatı necə almışdır. Özü də gündə bir bahalı saat taxır. Bu arvad da məni lap boğaza yığıb. Həftə səkkiz, mən doqquz xarici sanatoriyalardadır. Evdə axtardığımı da tapa bilmirəm. Qısqandığından özü burada olmayanda qulluqçuları da buraxır evlərinə ki, birdən...

Gedib özümdən 5 yaş böyük qızla evlənəndə bilirdim ki belə olacaq. Nədi-nədi filan nazirin qızıdır. Mənim əqidəmə görə, kişi arvaddan "neskolko da olmasa xotya" bı 3-4 yaş böyük olmalıdır, həm də gərəkdir ki, atası vəzifəcə səndən aşağı olsun. Yoxsa ona sözün keçməz. Amma neyləyim kişi zorla evləndirdi ki, nazir qızıdır.

Hələ bu kiçik oğluma bax sən Allah. Gedib yarım milyonluq maşınla şəhərdə lotuluq edir. Videosunu çəkib qoyurlar internetə, döşəyirlər qabırğama ki, guya mən lap qudurmuşam. Heç sözdür mən ölüm? Aman-zaman bir sonbeyişim var, indi ona "kakoy ni bud" 50 minlik maşın alası deyiləm ha. Uşaq üzümə də baxmaz ey.

Əsəbiləşdim ee lap, yaxşısı budur, bir siqar çəkim. Yaxşı ki, keçən dəfə Kubadan dənəsi 50 dollardan gətirtdiyim siqardan qalıb, görüm hara qoymuşam... Deyəsən, 4-cü mərtəbədəki kabinetimdə qalıb. Ev də ev deyil ey, Allah göstərməsin, elə bil oteldir, eni-uzunu-hündürlüyü bilinmir. Arvad evdə olanda liftlə çıxmağa qoymur ki, hərəkət elə, şişirsən getdikcə. Yaxşı ki indi evdə yoxdur, yorulmuşam ey, gərək liftlə çıxım.

Öz aramızdı, yaşlanıram haa, daha işləməyə də taqətim qalmayıb. İşləmək deyəndə onsuz da elə sən deyən işləmirəm. O gün prezident müşavirədə abrımı ətəyimə bükəndən sonra, düşündüm ki, lap ağını çıxarmışam. İclasda görəydiniz, mən tər tökəndə, o birilər necə sevinirdilər. O qədər göz dikən var ki yerimə. Söz verdim ki, nöqsanları tezliklə düzəldəcəm, indi gərək başlayım doğru-düzgün işləməyə.

Nə isə, daha gecdir, düşüm zirzəmidəki saunada bir az istirahət eləyim, sonra yatım. Mühafizəçi və xidmətçi dəstəsinə də gərək tapşırım səs eləməsinlər. Bu neçə hektarlıq bağda neçə-neçə nadir heyvan növü var, gör birinin səsi çıxırmı, amma o delfinlə krakadil lap həyasızdırlar, yaman səs salırlar, başıma düşür.

Arvad elə bil burda zoopark açıb. Nə qədər adam acından ölür dünyada, biz bunlara nələr yedirdirik, o dünyada dərimə saman təpəcəklər. Bir dəli şeytan deyir, hamısını sat, puluna yoxsullara yardım elə, xəstəxana tik, məktəb aç. Amma onda da qonaq-qara yanında biabır oluram, prestijim aşağı düşür...

Nə isə, yuxum gəlir... bu məsələni konfransdan sonra bir yaxşı fikirləşərəm...



# Avropa İttifaqı içindən çürüyür

RAKURS

*Bir neçə onilliklər ərzində kök salan korrupsiya "Qoca qitə"ni necə məhv edir?*



**Qərb dünyası, Qərbin təsis etdiyi qurum və institutlar, qeyri-hökumət təşkilatları, media və digər təsisatlar ”Qoca qitə”yə üzv olan dövlətləri bizə elə şəkildə və formada təbliğ ediblər ki, guya burada yaşayan insanlar digər ölkələrdə addımbaşı rast gəlinən rüşvət, korrupsiya, ”kölgə kabinet”, ”qara iqtisadiyyat”, mavi və sarılardan, qırmızılardan xalidirlər, ümumiyyətlə bu ifadələr avropalıların, amerikalıların leksikonunda, lüğətində belə yoxdur.**

Bəli, uzun müddətdir ki, sadalanan qanunsuz əməllərin yalnız dünyanın qalan ölkələrində olduğunu təsəvvür edirdik. Demokratiyanın da, söz və mətbuat azadlığının, insan haqlarının qorunması kimi ali dəyərlərin də Qərb dünyasına aid olduğunu düşünürdük. Boş yerə təbliğatın, reklamım böyük qüvvə olduğunu deməyiblər. Qərb özünüreklamı, özünütəbliği sayəsində guya ideal quruluşa malik olduğunu insanların beyninə yeridə bilib.

İplər çözüldükcə, pərdələr götürüldükcə məlum olur ki, sən demə Qərbin ”al gülüm və ver gülüm” üsulu və çeşidi hər kəsi pat duruma salacaq səviyyədədir. Bu günlərdə mətbuarda xəsisliklə dərc edilən Avropa Parlamentindəki korrupsiya qalmaqalı çoxlu gizlinləri üzə çıxardı. Bəlli oldu ki, sən demə ictimaiyyətə bu gün açıqlananlar aysberqin yalnız görünən hissəsi imiş. Pozuntuların və saxtakarlığın əsl miqyasını, yəqin ki, heç kim heç vaxt bilməyəcək. Avropa oliqarxiyası özünü ifşa etməmək üçün hər şeyi edəcək.

Avropa İttifaqında ciddi korrupsiya qalmaqalı gurultuya səbəb olub. Bir neçə hazırkı və keçmiş deputat və onların köməkçiləri Qətərin Brüsseldə maraqlarını təşviq etmək vədlərinə görə ondan nağd pul almaqda ittiham olunurlar. Belçika polisi tərəfindən saxlanılanlar arasında Avropa Parlamentinin keçmiş vitse-prezidenti Eva Kylie də var. Belçika Federal Polisinin məlumatına görə, o, ”cinayətkarlıq, korrupsiya və çirkli pulların yuyulmasında” şübhəli bilinir. Belçikanın gündəlik qəzeti L'Echo polisin Brüsseldə Kylienin evində axtarış apararkən ”bir neçə kisə əskinas” ələ keçirdiyini yazıb. Onun atasının da pulla dolu çamadanla qatarda həbs olunduğu iddia edilir. Polisin bildirdiyinə görə, Kaylinin evində aparılan axtarış zamanı ümumilikdə 600 min avro nağd pul ələ keçirilib. Təcrübəli analitiklərdən biri bunu son illərin Brüsseldəki ”ən dəhşətli” korrupsiya qalmaqalı adlandırıb.

Cinayət sui-qəsdi, korrupsiya və çirkli pulların yuyulması - bu, Netflix cinayət dramının süjetinə bənzəyir. Avropa Parlamentinin eyni vaxtda ”ağ don” geyinməsi necə də ironik görünür. Onun müavinləri özlərini elə təqdim edirlər ki, sanki onların müqəddəs missiyası Şərqi və Cənubi Avropada korrupsiyanın kökünü kəsməkdir. Eyni zamanda Macarıstanı və Polşanı, o cümlədən dünyanın əksər ölkələrini korrupsiyaya görə daim qınayan həmin avropalı parlamentarilər nədənsə Qətər qalmaqalı ilə bağlı susmağa üstünlük verirlər.

Onların susmasının səbəbini başa düşmək təəccüblü deyil, çünki müttəhimlər bir çox cəhətdən Brüssel elitası və Aİ ”köpüyü”dür. Belə ki, onların arasında Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının baş katibi Luka Visentini və Kylienin ortağı, Avropa Parlamentinin İtaliyadan keçmiş üzvü, onun insan hüquqları üzrə alt komitəsinin keçmiş rəhbəri Pier Antonio Panzeri də var idi.

Üstəlik, Panzeri ”Cəzasızlıqla Mübarizə” qeyri-hökumət təşkilatını da təsis edib ki, bu da faktiki olaraq qalmaqalın mərkəzində olub. Onun fəxri şurasına Aİ-nin keçmiş xarici siyasət rəhbəri Federika Moqerini, Fransanın keçmiş baş naziri Bernard Kazenev, Miqrasiya üzrə keçmiş Avropa komissarı Dimitris Avramopulos və keçmiş Avropa Parlamentinin deputatı Sesiliya Vikström daxildir. Təəccüblü deyil ki, qalmaqal alovlanan kimi onların hamısı tələsik rəsmi mövqelərindən, yəni vəzifələrindən çıxıb getdilər.









”Politico” nəşri yazır: ”Qətər qalmaqalı sübut etdi ki, Aİ-nin korrupsiya ilə bağlı problemi var”. Bunu demək ümumiyyətlə heç nə demək deyil. Əslində, onilliklər ərzində korrupsiya ittifaqda dərin kök salıb. 1999-cu ildə avroya keçidə nəzarət etmək vəzifəsi daşıyan 20 üzvdən ibarət Santer Komissiyası korrupsiya iddiaları fonunda bağlandı. Bunun ardınca bir sıra başqa, heç də az səs-küylü olmayan işlər gəldi. 2006-cı ildə Galvin MEP Xərcləmə Hesabatı sui-istifadə və nəzarət və nəzarətin olmaması barədə xəbərdarlıq etdi. Avropa Parlamentinin Bürosu əvvəlcə onu dərc etməkdən belə imtina etdi, lakin 2011-ci ildə irlandiyalı vəkil onu məhkəməyə verdi və məsələ həll olundu.

Brüssel korrupsiyasının hər yerdə yayılması ən azı onun nə qədər nadir hallarda başlıqlara çıxması ilə ifadə edilir. Baxmayaraq ki, son hesabatda Avropa Hesablama Palatası Aİ daxilində yoxlanılan əməliyyatların yalnız kiçik bir nümunəsində 15 fırıldaqçılıq hadisəsi aşkar edib. Pozuntuların və fırıldaqçılığın əsl miqyasını heç vaxt bilməyəcəyik. Avropa oliqarxiyası özünü ifşa etməmək üçün hər şeyi edəcək.

Avropa Parlamentini sarsıdan son qalmaqal aysberqin görünən hissəsidir. Siyasi düşmənləri korrupsiyada günahlandırmaqdansa, bəlkə Brüssel öz evini təmizləməli, yığışdırmalıdır?

Bəli, Avropa Parlamentindən başlanan korrupsiya qalmaqalı bu qurumun başına böyük bəlalar açacağı artıq qeyri-mümkün görünmür. Avropa İttifaqının nüfuzunu ləkələyən bu qalmaqalı törədənlər əslində başqa ölkələri korrupsiyada, rüşvətxorluqda ittiham edərək dünyanın gözündən salmağa çalışanlardır. ”Qoca qitə”nin bu gün dərdi başından aşır, ABŞ-ın təhriki ilə Ukrayna müharibəsində Vaşinqtonun yanında olan və Ağ Evdən gələn əmrləri tərəddüdsüz yerinə yetirən Avropa qurumlarının rəhbərləri vəziyyətin hansı nəticələrə gətirib çıxaracağını təxmin etdiklərindən büdcəni talamaq, daha çox sərvət toplamaq arzusundadırlar. Korrupsiyada adı hallananlar arasında Yunanıstan və Fransa nümayəndələrinin əksəriyyət təşkil etməsi də təsadüfi deyil. Hər iki ölkə Avropanın dağılmasından öz payını almaq arzusu ilə hər cür qanunsuz əməllərə qol qoyurlar. Bunu Avropada bilməyən yoxdur, amma korrupsiyanı hansı mexanizmlərlə və necə ləğv edəcəkləri üsulları tapa bilmirlər. Bir sözlə Avropanı içindən ”fransız” və ”yunan” adlı qurdlar yeyib bitirməkdədir.

**V.VƏLİYEV**

# Yazıq kişi




***Küçəmizdə bir kişiylə rastlaşdım. Gördüm ey, ora baxır, bura baxır, sözlü adama oxşayır. Gözləri bir nəfər axtarır ki, sualını verib cavabını ala. Camaat da elə sürətlə ötür ki, kişi çatdırıb soruşa bilmir.***

Yanından ötəndə hiss etdim ki, məndən nə isə soruşmaq fikri yoxdur, lakin ağsaqqal kişi olduğu üçün mən dayanıb, "əmi, sizə nə lazımdır",- dedim. Əmi də dedi ki, ay qızım, rayondan gəlmişəm, burada qızımgildə qonağam. Dünən enmişdim bir hava alam, bir də görüm buralarda bərbər var, saç-saqqalımı düzəltdirəm. Bax elə bu küçə idi, burada mən bərbər gördüm, indi nə qədər baxıram görmürəm axı.

Həmin dəqiqə anladım bu əminin problemini. Axı bizim küçənin həm o başında, həm də bu başında bərbər var. O başdakının qarşısında "Bərbər", bu başdakının qarşısında isə "Barber shop" yazılıb. Bu küçə də dairəvi şəkildədir. Nabələd adam bunu bilmir, ona görə də bu kişi kimi qalır məəttəl. Anladım ki, əmi dünən o başda gəzirmiş, orada "Bərbər" görüb, düşünüb ki, sabah gəlib saç-saqqalımı düzəltdirərəm. Bu da həmin sabah, kişi nə qədər axtarır, tapmır. Yaşlı adamdı da, nə etsin.

Hə, kişi dayanıb düz "Barber shop"un qarşısında, deyir mən dünən bax elə burada gördüm "Bərbər"i, ay bala, indi axı burada ayrı şey yazılıb. Başladı hərifləyib oxumağa: bu nə deməkdir axi? 70 yaşim var, birinci dəfədir bu sözə rast gəlirəm. Ay bala, deyəsən, buranı səhv yazıblar ey. Gözlərindən yayınıb yəqin.

Məsələ aydın idi. Dedim ki, ay əmi, bərbər lazım deyil sənə, elə buradır da. Əmi də dedi ki, yox ey, mən dünən axı burada bərbər görmüşdüm. Dedim ay əmi, saç-saqqalını kəsdirmək istəmirsən? Dedi, hə. Dedim, gəl bu qapıdan keç içəriyə, burada etsinlər. Baxır mənə. Həm də təəccüblə baxır. Sanki mən onu aldadırmışam kimi baxır...

Yazıq kişi, vallah, o qədər naharat oldum ki. Ay qardaş, yaşlı adamdı da, bunun başına niyə bu oyunları açırsınız? O "obyektin" qarşısına "Bərbər" yazanda nə olardı ki? Qoy biri küçənin o başında, biri də bu başında olsun da, nə olacaq ki... Vallah, mən hər gün o küçədən keçirəm, "Bərbər"də "Barber shop"dən çox adam olur. İndi bu bərbərlərin "dilini" deyişəndə nə olur ki?

Bu kişi də rayondan durub gəlib şəhərə qonaq. Qalıb iki "Bərbər"lə "Barber shop"un arasında, anlaya da bilmir ki, ikisi də əslində eyni yerdir, sadəcə biri "intelligentni" yazdırıb adını.

Etmədim tənbəllik. "Barber shop"un qapısını döymək istəyəndə kişi, yox-yox, ay bala, bura ora deyil. Mənə bura lazım deyil, dedi və üzünü çevirib getmək istəyəndə, dedim ay əmi, gəl, gəl, gedək. Düşdüm kişinin yanına, düz getdik çıxdıq "Bərbər"ə. Kişi başını yuxarı qaldırıb "Bərbər"i görmədi, başladı uşaq kimi sevinməyə. İndi dayanmadan-durmadan mənə duadır ki, edir:

-Ay qızım, səni xoşbəxt olasan. Mən dünən buranı görmüşdüm bax. Elə səhərdən də buranı axtarırdım. Hə, bax, mən bura getmək istəyirəm.

Kişi ilə sağollaşdım, o bərbərə getdi, mən də geriyə döndüm. Gəlib o "Barber shop"un qarşısından keçəndə başımı qaldırdım, o lövhəni bir də oxudum və başladım öz-özümə danışmağa: can ay dilim, gözəl dilim, dərdli dilim. Kaşki dilin olardı, dil açıb dərdlərindən danışardın. Bəlkə sənə yazığı gələn bir adam olardı...

**Mətanət Məmmədova**

# Bakcell innovasiyaları dəstəkləyir

*Şirkətin baş sponsorluğu ilə İllik İnnovasiya Sammiti keçirilib*

13 dekabr 2022-ci il tarixində Bakı Konqres Mərkəzində "PAŞA Holding"in təşkilatçılığı, İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin dəstəyi və Bakcell şirkətinin baş sponsorluğu ilə 2-ci İllik İnnovasiya Sammiti baş tutub. Tədbirin əsas məqsədi texnologiya sahəsində aparıcı şəxsləri və şirkətləri, eləcə də innovasiya yönümlü startapları Bakıda bir araya gətirmək, onlar üçün peşəkar müzakirələr, fikir və təcrübə mübadiləsi imkanı yaratmaq və beləcə ölkə və regionda innovasiya ekosisteminin formalaşmasına dəstək göstərməkdir. Sammit zamanı aparıcı yerli və xarici şirkət nümayəndələrinin, dünyaca məşhur spikerlərin iştirakı ilə təqdimatlar, panel müzakirələri, çıxışlar, startapların təqdimatı və təlimlər baş tutub.

Tədbir çərçivəsində "Telekommunikasiya sənayesinin inkişafı üçün tərəfdaş ekosistemindən istifadə" mövzusunda keçirilən panel müzakirəsində Bakcell şirkətini marketinq rəhbəri Elçin Gülməmmədov təmsil edib. O, öz çıxışında Azərbaycanın "Speedtest Qlobal" İndeksində mobil internetin sürətinə görə regional lider olduğunu vurğulayıb: "Bakcell şirkətinin internet sürəti üzrə göstərdiyi nəticələr həmin reytinqdə ölkəmizin ümumi mövqeyinə böyük təsir göstərib. Bakcell dörd il ardıcıl olaraq Azərbaycanın ən sürətli mobil şəbəkəsi adına layiq görülüb. Bu isə ölkəmizdə telekommunikasiya sahəsinin inkişafının parlaq nümunəsidir. Bakcell insanlara ən keyfiyyətli şəbəkə ilə xidmət göstərməkdən çox məmnundur. Bütün bunlar isə sübut edir ki, ölkədə rəqəmsal xidmətlərin inkişafı üçün müvafiq infrastruktur mövcuddur".

Qeyd edək ki, Bakcell şirkəti artıq ikinci ildir ki "PAŞA Holding"in təşkilatçılığı ilə keçirilən İllik İnnovasiya Sammitin baş sponsorudur.




# Düz söz dağ çəkir...



Mətanət Məmmədova

***Məsələn, bir fakta nəzər salaq. Qarabağ iqtisadi zonasında müvəqqəti yerləşdirilmiş sülhməramlı kontingentin komandanı general-mayor Andrey Volkovla Rusiya Müdafiə Nazirliyi arasında narazılıq yaranıb. Nə üçün? Çünki Volkov düz söz danışıb. Düz söz danışdıqda qarşındakı əsəbləşirsə, narazılıq edirsə, ta dağa, arana getmək lazım deyil, bunun bir mənası var, o da düz sözün dağ çəkməsi, yandırmasıdır.***

Nə deyib Andrey Volkov? Azərbaycan toponimləri ilə bağlı jurnalistlərə verdiyi açıqlamada "Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzindən bütün toponimləri Azərbaycan tərəfinin bizə göndərdiyi adlarla yazırıq. Amma təəssüf ki, Rusiya Müdafiə Nazirliyinin saytında bu adlara düzgün əməl edilmir",-deyib.

Bu fikirlər isə Rusiya yuxarı komandanlığının ciddi narazılığına səbəb olub. Adıçəkilən qurum nə üçün narahatdır? Çünki Volkov düz danışıb. Onu qınamaqda heç kim haqlı ola bilməz. Çünki onun da bir insan, bir ziyalı, vəzifə sahibi kimi düz danışmağa haqqı var. Birincisi, ona görə düz danışır ki, ortalıqda böyük bir həqiqət var. İkincisi, ona görə düz danışır ki, ən azından aylardır, sülhməramlı kontingentin komandanıdır, Azərbaycan həqiqətlərini gözü ilə görür, bütün bunlar isə onun düz danışması ilə nəticələnir.

Kiminsə narazılığının, əsəbləşməyinin bizə zərrə qədər dəxli yoxdur. Lakin bu narazılıq və əsəbləşməyin arxasında nələrin dayandığı maraqlıdır. Bu da deyərdim ki, marağını itirib. Çünki düz söz dağ çəkər, misalı hər şey göz önündədir.

Söylənən digər bir düz sözdən də bəhs edək. Şuşa-Xankəndi yolunda azərbaycanlı fəalların keçirdiyi aksiya zamanı maraqlı hadisə baş verib. Ərazidə xidmət aparan sülhməramlı azərbaycanlı fəalla söhbət edərkən "Qarabağın Azərbaycana məxsus olduğunu bildirib və Qarabağ Azərbaycandır, inşallah",- deyib.

Qarabağın Azərbaycanın olduğu əsrlərin süzgəcindən süzülüb gələn, tarixi faktlarla özünü təsdiqləyən bir reallıqdır. Bunu hər birimiz bilirik. Qarabağdakı toponim adlarının illərlə ermənilər tərəfindən dəyişdirilərək qondarma adlar qoyulduğu da hər kəsə məlumdur. Lakin bütün bu gerçəkliklər fonunda bir neçə gün ərzində həm sülhməramlı kontingentin komandanının, həm də sıravi sülhməramlının böyük cəsarətlə bu həqiqətləri izhar etmələri, sözün həqiqi mənasında, böyük cəsarətdir, hələ də həqiqətləri deməkdən çəkinməyən insanların var olduğunu göstərən amildir.

Volkovun açıqlaması yuxarı dairələrdə heç də yaxşı qarşılanmadı. Bəs sülhməramlının "Qarabağ Azərbaycandır!" söyləməsi görəsən necə qarşılandı? Heç ola bilməz ki, istər komandan olsun, istər də sülhməramlı, bu açıqlama və sözlərlə görə cavab verməli olacaqlarını bilməyələr. Lakin şükürlər olsun ki, bu yalan dünyada bütün bunları bilə-bilə düz söz söyləyənlər hələ də var.

İnşallah ki, bu cür düz söz danışanların sayı gündən-günə artar. Ermənilərin illərlə yaratdıqları mifalogiyanı söküb darmadağın edər. Onsuz da nüfuzlarını hər gün bir az da itirməkdə olan ermənilər üçün də bu açıqlamalar ürəkaçan olmasa da, ümidvarıq ki, belə düz sözlər onlara yaxşıca dağ çəkir.

Deyirlər, dil çaşar, düzün söylər.. Çünki düz elə bir amildir ki, öz doğruluğunu istər-istəməz ortaya çıxarır. Elə iki il öncə bunun da şahidi olduq. Paşinyanın özündən asılı olmayaraq "Qarabağ Azərbaycandır" ifadəsini səsləndirməsi onun sübutu idi ki, doğru olan budur. "Qarabağ Ermənistandır" deməyi nə qədər beyninə yeritsə də, ağzından çıxan söz şüuraltında artıq özünə çoxdan yer tapan həqiqət idi.

Beləliklə, Azərbaycan tarixin bütün dövrlərində regionda sabitliyin, sülhün tərəfində olan, qonşuluğundakı dövlətlərlə mehriban şəraitdə yaşayan, ən əsası isə, necə deyərlər, qonşu malında gözü olmayan, toxgöz bir xalqdır. Tarix sübut edir ki, bu xalq zadəganlıq nümunəsi olmuş, süfrəsinin başında çox acların çörəyi olmuşdur.

Elə bu ali keyfiyyətlərinə görə də regionda həmişə öz çəkisini, hörmətini qoruyub saxlaya bilmişdir. Lakin çox təəssüflər olsun ki, bu cür gözəl ölkənin "alnına" erməni adlı qonşuluqdan kənar olmuşlarla qonşuluq yazılıb. Və bu alın yazısı ilə də illərdir ki, Azərbaycan mücadilə aparır. Lakin biz həmişə doğru yolda, həqiqət carçıları olmuşuq. Elə haqqımızda danışılan düz sözlərin hər biri də kimlərəsə dağ çəkməklə yanaşı, digər tərəfdən də həqiqətlərimizi izhar edir.

# USAİD-in ermənipərəst rəhbəri yenə Azərbaycanı ittiham etdi




**Bu, həmin Samanta Pauerdir...**

Məlum olub ki, USAİD-in rəhbəri Samanta Pauer özünün tvitter səhifəsində Azərbaycan ekoloqlarının və QHT fəallarının guya Laçın yolunu "bağlamalarını" hədəfə alan ittiham xarakterli fikirlərini yazıb, eləcə də sözügedən istiqamətin açılmasını tələb edib. Halbuki, bu yol məhz Rusiya sülhməramlıları kontingenti (RSK) tərəfindən bağlanılıb və bu barədə rəsmi Bakının da bəyanatı var.

Digər tərəfdən, Azərbaycan ekoloqlarının, QHT təmsilçilərinin və fəallarının həmin yolda etiraz aksiyaları keçirmələrinin səbəbi də məlumdur. Daha dəqiq desək, yolu Azərbaycan tərəfi bağlamayıb və Xankəndinə gedən humanitar yüklər də daşınmağa davam edir. Bu baxımdan, Pauerin səs-küy qaldırması da anlaşılan deyil. Yaxud onun bu kimi davranışı arxasında dayanan daha bir səbəb də var - ermənipərəstlik! Həmin faktın isə kifayət qədər sübutları var...

## Samanta Pouer zaman-zaman Azərbaycana və Türkiyəyə qarşı sırf düşmənçilik mövqeyini nümayiş etdirib, hətta irqçi mövqeyi ilə seçilib

Eyni zamanda, Sorosun əlaltısı olan bu qadın sözügedən tvitində yazıb ki, Laçın dəhlizi dərhal (??!!) açılmalıdır və onun bağlanması "humanitar böhrana" səbəb ola bilər. Halbuki, RSK ərzaqları, tibbi ləvazimatları, dərmanları və s. humanitar yükləri Xankəndiyə daşıyır və aksiyaçılar bu yolu əsla bağlamırlar.

Yeri gəlmişkən, onu da xatırladaq ki, bilavasitə Sorosun təlimatları əsasında fəaliyyət göstərən ermənipərəst Samanta Pouer zaman-zaman Azərbaycana və Türkiyəyə qarşı sırf düşmənçilik mövqeyini nümayiş etdirib, hətta irqçi mövqeyi ilə seçilib. S?A-nın əldə etdiyi məlumata görə, o, hələ ötən il Ermənistandakı Amerika Universitetinə yeni qəbul edilmiş tələbələrə onlayn müraciət edib və Azərbaycanla Türkiyəni "vəhşi" adlandırıb. Heç bir məntiqə və mənaya sığmayan bu cür davranışın, məhz Samanta adlı sorosçu korrupsionerinə aid olması isə, əslində, təəccüb doğurmur. Belə ki, bu şəxs uzun illərdir ki, istər ABŞ-da, istərsə də digər Qərb ölkələrində açıq-aşkar türkofobiya siyasəti yürütməsi ilə yadda qalır.

## Azərbaycanı və Türkiyəni "vəhşi" adlandıran Samanta Pouer!







Hələ İkinci Qarabağ müharibəsində öz suveren ərazilərinin azadlığı uğrunda canlarından keçən Azərbaycan əsgər və zabitlərini, eləcə də ölkəmizə mənəvi dəstəyini əsirgəməyən Türkiyə dövlətini "vəhşi" adlandıran bu türkofob ünsür adıçəkilən universitetin tələbələri qarşısında onlayn çıxış edərkən müharibədə ölən 6 nəfər erməni tələbənin ölümündən təəssüf hissi keçirdiyini bildirib, onların qohumlarına başsağlığı verib.

Lakin bu zaman belə bir sual yaranır ki, görəsən, Samanta Pauer erməni terrorları nəticəsində Azərbaycan ərazilərində vəhşicəsinə öldürülən azərbaycanlılara görə təəssüf hissi keçiribmi? Yaxud, İkinci Qarabağ müharibəsində torpaqların azadlığı uğrunda canlarından keçərək şəhid olan gənc tələbələrin, ali təhsil müəssisələri məzunlarının ölümlərinə görə təəssüf edibmi? Əlbəttə ki, əsla! Çünki o, açıq-aşkar ermənipərəstdir və erməni lobbisinin pullarını yeyir, üstəlik, şefi olan Sorosun da dəstəyini almaqda davam edir.

## Pauer Bayden administrasiyasının "qondarma erməni genosidini" tanıması ilə fəxr etdiyini bildirir

Və bu, həmin Samantadır ki, hər dəfə çıxışının əsas hissəsini Bayden administrasiyasının "qondarma erməni genosidini" tanıması ilə fəxr etdiyini bildirir və bu səbəbdən "nə dərəcədə rahatlıq hissi" tapdığını etiraf edir. Ermənipərəst Pauerin Azərbaycan və Türkiyəyə qarşı olan həmin çıxışın videosu ilə aşağıdakı linkdən tanış ola bilərsiniz:

https://www.usaid.gov/news-information/videos/american-university-armenia-commencement-remarks

Xatırladaq ki, USAİD-in rəhbəri əvvəllər də Azərbaycan xalqını təhqir və təhdid edərək sərsəm fikirlərini ictimailəşdirib və biz S?A olaraq bu haqda silsilə yazılarla çıxış etmişik. Təəssüf ki, bütün bu kimi faktlar ortada olaola USAİD-in Azərbaycan nümayəndəliyi hələ də öz mövcudluğunu qoruyub saxlayır...

Qeyd: xatırladaq ki, S?A olaraq biz dəfələrlə bu təşkilatın açıq erməniperəstlik və türkofob mövqeləri barədə, habelə hansı siyasi korrupsiya əməllərinə bulaşması barədə geniş, silsilə xarakterli məqalələrlə çıxış etmişik. Həmin məqalələrin bir qismini yenidən xatırlatmaq məqsədi ilə linklərini təqdim edirik:




https://sia.az/az/news/politics/936249.html

https://sia.az/az/news/politics/896995.html

https://sia.az/az/news/politics/877915.html

https://sia.az/az/news/politics/874152.html

EKSKLÜZİV+VİDEOFAKT!

***Rövşən RƏSULOV***



**İLHAM**

## *Sosial şəbəkələr qohumları da bir-birinə düşmən edə bilir*

Müasir dövrdə informasiya-texnalogiyaları sahəsində çox möhtəşəm uğurlara, nailiyyətlərə imza atılılıb. Bu inkişaf dünya ölkələrini bir - birinə yaxınlaşdırmaqla yanaşı, insanları da dilindən, dinindən, milli mənsubiyyətindən asılı olmayaraq bir-birinə yaxınlaşdırıb. Elə şəxslər olur ki, Yaponiya, Malayziya, Hindistan, ABŞ, Argentina və bu kimi digər uzaq ölkə vətəndaşları ilə sosial şəbəkə üzərindən əlaqələr saxlayır, dostlaşır və yaxın sirdaş əlaqələri yaradırlar. Sonrakı mərhələdə sosial şəbəkə dostları bir-birinə qonaq gedir, ailəvi münasibətlər qurur, bir-birinə qız verib, qız alırlar. Misal olaraq, məhşur kino ulduzu Jan-Klod Van Dammın oğlu Kristofer Van Dammın azərbaycanlı pianoçu Suada Hacızadə ilə ailə qurmasını göstərmək olar. Cütlüyün valideynləri sosial şəbəkə üzərindən dostlaşıb, əlaqələr yaradıb və sonrakı mərhələdə bu dosluq övladlarının nişanlanması və evlənmələri ilə daha da möhkəmlənib. Yəni sosial şəbəkələr bəzi yaxşı cəhətləri ilə diqqətəlayiqdir. Ancaq çox təəssüflər olsun ki, bəzi sosial şəbəkə istifadəçiləri var ki, ağlına gəldi deyil, ağzına gələni yazır, statuslar, videolar paylaşırlar. Bəzən xalqını sevən, dövlətinə bağlı olan insanlar hədəfə alınır, tənqid və təhqir edirlər. Bu baxımdan, sosial şəbəkələr sanki bir nəzarətsiz zonaya çevrilib. Hətta elə hallar olur ki, formalaşmış çoxüzvlü qrup hədəfə alınan şəxsin yaxınlarını da söyməkdən çəkinmirlər. Vay o məqama ki, söyüş söyən sosial şəbəkə istifadəçisinə adekvat cavab verəsən, dərhal çoxüzvlü qrup geniş şəkildə hay-küy qaldırıb, söyüş ritorikalarını genişləndirirlər. Nəticədə, təhqir olunan, hədəfə alınan şəxsin sağlamlığına, yaşam tərzində ciddi fəsadlar yaranır.

Bir sözlə, vəziyyət o dərəcədə kritik xarakter alıb ki, insanlar söz duelini, müəyyən hadisələri sosial şəbəkə üzərindən qururlar. Əsasən, gənclər daha çox sosial şəbəkələrdə vaxt keçirirlər. Bu baxımdan demək olar ki, əksər valideynlər övladlarına nəzarət funksiyasını da itirirlər. Elə hallar olur ki, valideynlər gecə yuxusunda olduqları məqamda gənclər sosial şəbəkələrdə vur-çatlasında olurlar. Səhər də məktəbə və ya universitetə vaxtında getmələrində ciddi problemlər yaranır. O gün küçəmizdə qonşunun öz-özünə gileyini eşitdim, salam verib hal-əhval tutarkən "bu internet-filanı çıxaranları görüm bəlaya düçar olsunlar" deyə bildirincə, maraqlandım, sualımı gözləmədən - məni qınayanı görüm mənim günümə düşsün. - Qonşu nə baş verib- sualını edincə- nə olacaq ki, uşaqlar kənddə babalarının yanına getmək istəmirlər. Atam da elə bilir ki, mən bilərəkdən nəvələrini onunla görüşdürmək istəmirəm- əsəbi halda cavab verdi. -Uşaqlar niyə kənddə getmək istəmirlər-sualını edincə, əsəbindən qızarmış üzünü mənə tutub dedi: Kənddə internet yoxdu. Sosial şəbəkə deyilən zəhrimardan uşaqlar istifadə edə bilməyəcəklər. Ona görə də, kəndə, babalarının yanına getməkdən imtina edirlər.

Qonşum sözlərinə ara verib, bu dəfə mənə sual etdi: - Sizin uşaqlar necə, kəndə gedirlərmi? Köks ötürüb, qayğılı halda cavab verdim: Bizim uşaqlar da kənddə internet olmadığı üçün o gözəl yerlərə getmirlər- deyib, əsəbi qonşumu sakitləşdirməyə çalışdım.

Qonşudan aralanarkən yadıma bir əhavalat düşdü. Deməli, bir şahın heç xoşlamadığı vəzir, vəkili və xəzinədarı vardı. Onlardan canını qurtarmaq üçün bəhanələr axarırdı. Bir gün əhalini meydana toplayır və meydanın ortasına, bir keçini buraxıb, vəzirinə üzünü tutub, deyir- Vəzir, bu ortalıqdakı heyvanın adı nədir? Əgər səhv desən, boynunu vurduracam. Vəzir tövrünü pozmadan deyir, - Şah sağ olsun, keçi. Şah cəllada - yalan dedi, bunun boynunu vurun! Sonra da vəkilini çağırıb, ona da eyni sualı edir. Vəkil titrək səslə, - Şah sağ olsun, qoyun - deyə cavab verir. Şah onun da yalan dediyini bildirib boynunu vurdurur. Xəzinədarı çağırıb ona da sual edir, meydanın ortasındakı heyvanın adını soruşur. Xəzinədar dünyanın hər üzünü, gəlişini, gedişini görmüş savadlı insanlardan olur. Bir şaha, bir meydanın ətrafına toplaşıb şahın şousuna tamaşa edən insanlara, bir də meydanın ortasındakı keçiyə baxıb deyir: - Şah sağ olsun, meydanın ortasındakı nə keçidir, nə qoyundu, heç dana da deyil, o bir Allahın bəlasıdır ki, keçib, bizim boğazımıza.

Bəli, həqiqət ondan ibarətdir ki, bu sosial şəbəkələr deyilən, belə keçib bizim boğazımıza. Kimisi canını, malını, ailəsini qoruya bilir, kimisi də zəif və iradəsiz olduğundan hər şeyini itirir. Ancaq calışmalıyıq ki, mal-mülk gəldi-gedərdi, insanlığımızı itirməyək.

# Yeni il hədiyyələri doğurdanmı təhlükəlidir?




***Yaşadığımız dünyada bir uşağın gülüşündən gözəl nə ola bilər? Uşaqlar ən dözülməz vaxtlarda belə bizi güldürən və həyata bağlayan ən gözəl varlıqlardır. Onların kiçik bir kədərləri belə bizim narahat olmağımıza kifayət edir.***







Bildiyimiz kimi, artıq Yeni ilə sayılı günlər qalıb. Yeni ilə həm şən, həm də xoşbəxt girmək istəyirsinizsə, ətrafınızdakı uşaqları güldürməyə çalışın. Onlara ən yaxşı Milad hədiyyələri ilə şirin sürprizlər bəxş edin.

Bildirək ki, Yeni ilin böyüklər və uşaqlar üçün fərqli mənaları var. Biz böyüklərin yeni ildən böyük gözləntiləri olur. Ancaq bir uşaq üçün bu bayram yalnız yeni bir zaman dövrünün başlanğıcı və şirin Milad hədiyyələridir. Milad bayramını uşaqlar üçün bu qədər cəlbedici edən şey, əlbəttə ki, onların bizdən alacaqları hədiyyələrdir. Uşaqlar onlara alacağımız Milad hədiyyəsinin xəyalları ilə yuxuya gedirlər və o oyuncaqların xəyalları ilə gözlərini açırlar.

## Bəs, Yeni ildə uşaqlara hansı hədiyyələri ala bilərik?

Uşaqlar üçün Yeni il hədiyyəsi dedikdə ağlımıza ilk gələn şey hədiyyə qutularıdır. Üstəlik, cinsindən asılı olmayaraq bütün uşaqlara Milad hədiyyə qutularının bir çoxunu hədiyyə edə bilərsiniz.

## Oğlan uşaqları üçün bayram hədiyyələri:

Kişilər üçün hədiyyə almaq adətən çətin olsa da, kiçik oğlan uşaqları üçün bir çox seçim var. Normal şəraitdə uşaqlara özlərini təkmilləşdirmək üçün kitablar və zehni oyunlar tövsiyə olunur. Yaradıcı fəaliyyətlərin beyin inkişafında nə qədər təsirli olduğunu yəqin ki, hamımız bilirik. Bu fəaliyyətlər sayəsində həm zehnimizi inkişaf etdiririk, həm də keyfiyyətli vaxt keçiririk. Uşaqlar üçün bu tip hədiyyələr onların inkişafına böyük töhfə qatacaq.

## Komanda forması

Oğlanların əsl futbol azarkeşi olduğunu bilməyən yoxdur. Kiçik yaşlarına baxmayaraq, sizə qarşı tutduqları komandanın heyətini heç bir səhv etmədən saya bilirlər. Onlar hər fürsətdə sizinlə futboldan danışmağa və komandalarının nə qədər yaxşı olduğunu sübut etməyə çalışırlar. Bir oğlan uşağına veriləcək ən yaxşı hədiyyələrdən biri onların sevimli komandasının forması olacaq.

## Oyuncaq avtomobil

Uşaqlar üçün avtomobillər futbol kimi bir sevgiyə malikdir. Oğlan uşaqları dostları ilə bir araya gəldikləri hər fürsətdə maşınlarını yarışdırırlar. Bu şirin rəqabətin baş tutacağı oyuncaq avtomobil treki onların maraqlı oyunlarına rəng qatacaq.

## Qız uşaqları üçün Yeni il hədiyyələri:

Boyama uşaqların sevimli məşğuliyyətlərindən biridir. Qız uşağı üçün Yeni il hədiyyəsi olaraq rəngli boyalar və boyama kitabı ala bilərsiniz. İstəyirsinizsə, rəngləmə kitabının yanına şokolad və rəngləmə dəsti də əlavə edə bilərsiniz. Bu şəkildə onu sənətlə dolu yepyeni bir ilə hazırlayacaqsınız. Üstəlik, bu cür fəaliyyətlər sayəsində sosiallaşa bilmədikdə belə onun keyfiyyətli vaxt keçirməsini təmin edə bilərsiniz.

## Nağıl qəhrəmanları kostyumu

Biz hamımız kiçik olanda nağıl qəhrəmanı olmaq istəməzdikmi? Buna görə də, qızlara aid ən gözəl Milad hədiyyələrindən biri nağıl qəhrəmanı kostyumları olacaq. Onun üçün alacağınız kostyumla o özünü nağıl dünyasının ulduzu hesab edəcək.

## Gəlincik

Oğlan uşaqlarının ən sevdiyi oyuncaq avtomobil olduğu kimi, bu qızlarda gəlincikdir.

## Oyun xəmir dəsti

Təbii ki, uşaqların əl bacarıqlarını inkişaf etdirən, əylənmələrini təmin edən şeylərdən biri də təbii ki, oyun xəmiri dəstidir. Oyun xəmirindən hazırlayacaqları müxtəlif əşyalar onların bacarıqlarını inkişaf etdirəcək. Bu, uşağın əzələ inkişafına da müsbət təsir edəcək. Ona görə də həm faydalı, həm də əyləncəli bir hədiyyə istəyirsinizsə, onlara oyun xəmiri dəsti ala bilərsiniz.

Təbii ki, bu hədiyyə yalnız qızlar üçün hədiyyə deyil. İstəyirsinizsə, oğlan üçündə belə bir Milad hədiyyəsi ala bilərsiniz. Oyun xəmiri dəsti məktəbəqədər hədiyyələrində də qiymətləndirilə bilən bir fikirdir. Bu arada, hədiyyə seçərkən qutunun üzərindəki yaş qrupu məhdudiyyətinə diqqət yetirməyinizi tövsiyə edirik.

Bütün bu hədiyyələrlə yanaşı Yeni il öncəsi marketlərdə uşaqlar üçün hədiyyə qutusu dəstləri də satılır. Bəs, bu hədiyyə qutularının içərisində nə var? Onlar uşaqların sağlamlığına necə təsir edir? Hədiyyənin qiyməti onun içindəki ilə mütənasiblik təşkil edirmi? SİA marketlərdəki Yeni il hədiyyə qutuları haqqında araşdırma aparıb.

"Lays" Yeni il qutusu- 3.99 AZN. Qeyd edək ki, bu ən ucuz hədiyyə variantlarından biridir.

"Bolluq hədiyyəli dəst"- 4.29 AZN

"Kağızdan ev qutulu hədiyyə dəsti" - 6.55 AZN

"Yeni il hədiyyəsi evcik dəsti" - 22.90 AZN

"Milka Yeni il hədiyyə dəsti" - 7.99 AZN

"Milka qarışıq peçenyeli hədiyyəlik qutu" - 3.59 AZN

"Milka şaxta baba şirniyyat qutusu" - 5.49 AZN

"Milka şirniyyat qutusu" - 3.69 AZN. Gördüyünüz kimi, bir markanın fərqli qablaşmada olan hədiyyəliklərinin qiymətləri də fərqlidir.

"Barni yeni il qutusu" - 4.39 AZN

"SWEET BOX hədiyyəli şirniyyat qutusu" - 3.79 AZN

Bunlar iri marketlərdə olan konkret olaraq bəlli markanın qiymətləridir. Ümumilikdə isə 10.90 AZN, 12.90 AZN, 13.90 AZN, 3.10 AZN, 2.55 AZN, 36.90 AZN, 28.90 AZN, 23.70 AZN, 21.50 AZN, 18.95 AZN, 17.85 AZN, 2.49 AZN, 9 AZN və digər fərqli qiymət aralıqlarında hədiyyələr mövcuddur. Ümumilikdə onu qeyd edə bilərik ki, hədiyyələr hər cibə uyğundur. Lakin, qiymət azaldıqca keyfiyyət də zəifləyir".

**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov:** "Çox zaman "Yeni il hədiyyələri" adı altında qablaşdırılan qutuların içərisinə vaxtı keçmiş, üzərində yararlılıq müddəti qeyd edilməyən məhsullar qoyulur. Bu da uşaqlarda zəhərlənmə hallarının baş verməsinə səbəb olur. Bu səbəbdən vətəndaşları diqqətli olmağa çağırıram. İstehlakçılar həmin qutuları alarkən onların içərisində olan bütün qidaların tarixinə baxmalı, hüquqlarının müdafiəsi üçün fəallıq göstərməlidirlər.

Yeni il bayramı günlərində bu hədiyyələrlə əlaqədar şikayətlər edilir. İstehlakçılar belə hallarla rastlaşdıqda, şikayətini bildirməlidir. Uşaqlara qablaşdırılmış Yeni il hədiyyələri alan valideynlər aldıqları hədiyyələri açıb içindəkilərə baxmalıdır.

Hər il bayram şənliklərində ekzotik qutularla yararlılıq müddəti keçmiş mallar qablaşdırılır və istehlakçılara verilir. Valideynlər isə bu hədiyyələri alır, verir uşaqlara, özlərinin başı şənliyə qarışır, uşaqları nəzarətsiz qoyurlar və zəhərlənmə halları baş verir. Hətta ola bilər yararlılıq müddəti keçməsin, amma məhsul xarab olmuş olsun. Belə hallarda da istehlakçının 14 gün ərzində həmin halları qaytarmaq və pullarını geri almaq, həmçinin şikayət etmək hüququ var.

Məsələ ilə bağlı vəziyyət ildənilə yaxşılaşır. Amma problem hələ də qalmaqdadır. Dəyərindən iki dəfə baha satılan bu hədiyyələrə nəzarət güclənməlidir.

Çox təəssüf ki, bəzi biznes sahibləri vaxtı keçmiş məhsulları hədiyyə qutularına daxil edirək onları uşaqlara təqdim edirlər. Belə qidaların uşaqlar tərəfindən istahlak edilməsi isə uşaqların kütləvi şəkildə zəhərlənməsinə gətirib çıxara bilir. Bu baxımdan valideynlər hədiyyə qutuları aldıqda mütləq şəkildə onun içərisindəki məhsulların tarixinə diqqətlə baxmalıdır. Əgər hədiyyə qutusunun daxilində ədəd mallar varsa, onun üzərində buraxılma tarixi olmadığı üçün onları uşaqlara verməsinlər. Misal üçün konfetlərin üzərində buraxılma tarixi olmur. Peçeni, vafli kimi məhsulların isə yalnız buraxılma tarixinə baxdıqdan sonra uşaqlara verə bilərlər. Əgər hədiyyə qutusunun içərisindəki məhsulların buraxılma tarixi yoxdursa o zaman qutuların üzərindəki tarixə əhəmiyyət vermək lazım deyil. Həmin tarix aldadıcıdır".

***Ayşən Vəli***

ARAŞDIRMA



*Qarabağda, Şuşa-Xankəndi yolunda Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi zonada qeyri-qanuni mədənlərin Azərbaycanın ətraf mühitinə və əmlakına vurduğu ziyana qarşı azərbaycanlı ekoloqların dinc etiraz aksiyası davam edir. Bütün bu müddət ərzində Rusiya Sülhməramlı Korpusu (RSK) Laçın dəhlizinin qarşısını kəsib, etirazçılar isə oradan keçən avtomobilləri buraxıblar.*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb.*

# "Qarabağ qanunsuz silahlı birləşmələrdən mümkün qədər tez azad edilməlidir"





*Üçtərəfli sazişdə Azərbaycan vətəndaşlarının sülhməramlıların nəzarətində olan ərazilərə müvəqqəti səfər etmək hüququnun olmadığı haqda müddəanın yer aldığını xatırlamıram*

Ermənistan isə vəziyyəti humanitar böhran kimi təqdim etməyə çalışır. Rusiya Federasiyasının 1-ci dərəcəli dövlət müşaviri, siyasi elmlər doktoru, Roskonqres İntellektual, Biznes və Siyasi Elita Qapalı Klubunun üzvü Tatyana Poloskova "Vestnik Kavkaza" portalına müsahibəsində bütün problemlərin həlli yolları və Qarabağda, Cənubi Qafqazda sülhə təsir edəcək proseslər haqda danışıb. Müsahibəni oxucularımıza təqim edirik.

**- Əvvəla, hüquqi nöqteyi-nəzərdən Azərbaycan QHT-lərinin RSK-nın müvəqqəti dislokasiya zonasına təbii ki, sülhməramlılar tərəfindən təmin edilən müşayiət və təhlükəsizliklə səfər etmək hüququ varmı?**

- Azərbaycan, Ermənistan və Rusiya arasında imzalanmış üçtərəfli sazişdə haradasa Azərbaycan vətəndaşlarının Rusiya sülhməramlılarının nəzarətində olan ərazilərə müvəqqəti səfər etmək hüququnun olmadığı haqda müddəanın yer aldığını xatırlamıram. Xüsusilə qeyri-hökumət təşkilatlarının missiyalarına gəldikdə. Xəbərdarlıq edilməlidirmi- bəli. Təhlükəsizliyi təmin etmək üçün müşayiət olunmalıdırlarmı - əlbəttə. Amma maneələr qoymaq və onları içəri buraxmamaq? Sazişdə belə bir şey yoxdur.

Bu, istər-istəməz belə bir fikir yaradır ki, Azərbaycan ictimaiyyətinin nümayəndələrinə qarşı bu cür sayıqlıq heç də onların yaraqlılarla səhv salınması ilə bağlı deyil. Gizlətmək üçün bir şeyiniz varmı? QHT nümayəndələri kazarma və cəbbəxananın yox, kifayət qədər açıq obyektlərin vəziyyətini izləməyə gəliblər. Hesab edirəm ki, Rusiya tərəfi, əksinə, açıqlıq və dialoq istəyi nümayiş etdirməkdə maraqlıdır.

Hadisə zonasında Azərbaycan mətbuatının işinə qarışmağa, hətta kifayət qədər kobud şəkildə müdaxilə etməyə yol verən hərbçilər üçün əlavə siyasi dərslər keçirmək lazımdır. O cümlədən onlara xatırladın ki, məsələn, Rusiyada bu cür hərəkətlərə görə cinayət məsuliyyəti var.

Onu da xatırlatmaq istəyirəm ki, hərbçilər müəyyən "işğal zonasında" deyil, ərazisində yerləşdikləri ölkənin mülki yerli əhali ilə nəzakətli və təmkinli davranmalıdırlar. Və bu heç bir halda təhlükəli presedentlər yaratmır. Üstəlik, eyni Panamada olduğu kimi, artıq nümunələr var idi.

Təbii ki, bizim vəziyyətimizdə söhbət hərbi bazadan yox, müvəqqəti sülhməramlı qüvvələrdən gedir.

Ancaq icazə verin, buna baxmayaraq, bu vəziyyətləri müqayisə edim. Məhz yerli əhali ilə toqquşmada ABŞ hərbçilərinin fikrincə, hərbi bazaya həddən artıq maraq göstərən tələbələrin və məktəblilərin öldürülməsi ilə başa çatan münaqişədən sonra ABŞ-ın bu ölkədə hərbi obyektlər şəklində mövcudluğu başa çatıb.

Rusiya indi qalan dostlarını da itirməyə daha çox tab gətirə bilməz. Geosiyasi vəziyyət eyni deyil.

**- Ermənistanın qanunsuz silahlı birləşmələrinin oradan tamamilə çıxarılması Qarabağdakı sülhməramlılarımızın işinə nə dərəcədə kömək edəcək?**

- Hətta çox mötəbər təşkilat olan Azərbaycanın rus icması da Rusiyanı erməni qeyri-qanuni silahlı birləşmələrinin tez bir zamanda (yeri gəlmişkən, bu, çoxdan baş verməli idi) çıxarılmasına şərait yaratmağa çağırır- və hələ də işlər davam edir. Yenə bu o deməkdir ki, bəzi oyunçuların orada qeyri-qanuni silahlı birləşmənin olmasında maraqları var.

Qaynar nöqtələrə (məsələn, mən Suriyada demək olar ki, iki il fasilələrlə olmuşam) işgüzar səfərlər təcrübəmə əsaslanaraq bilirəm ki, qeyri-qanuni silahlı birləşmələr ən azı sülh və harmoniyanın pozulması ilə məşğuldur. Onlar adətən narkotik ticarəti, silah satışı, cinayətkar fəaliyyətin "müşayiəti" ilə fəaliyyət göstərir və s.

Amma ilanın başı Qarabağda deyil. İstək və siyasi iradə varsa, bunu başa düşə bilərsiniz. Şeytan bizə deyildiyi qədər qorxulu deyil.

**- Ermənistanın qanunsuz silahlı birləşmələrinin Qarabağdan çıxarılması Ermənistan-Azərbaycan nizamlanma proseslərinə necə təsir edəcək?**

- Fikrimcə, Azərbaycanla Ermənistanın münasibətləri və Qarabağda qanunsuz silahlı birləşmələrin fəaliyyəti iki paralel xəttdir. Qanunsuz silahlı birləşmələr qanlı biznesdir, onun rəhbərləri və müxtəlif sferalardan, o cümlədən siyasi hakimiyyətdən olan himayədarları xalqların, dinlərin, Amazon tısbağalarının və Amur pələnglərinin hüquqlarının müdafiəsi mövzularından fərqli vəzifələrin həyata keçirilməsi üçün istifadə edirlər.

Bu qanunsuz silahlı birləşmələr Qarabağ üçün nə etdi? Bəs indi 3 yerə bölünən Suriya üçün necə oldu? Və onların, hər halda, yaxın gələcəkdə birləşəcəyi ehtimalı yoxdur. Yaxın aylarda Dəməşq, Latakiya, Homs, Tartusda olduğum müddətdə aldığım materiallar əsasında kitab nəşr etdirəcəyəm: Suriya gündəlikləri. Bu kitabda Suriyadakı bəzi qeyri-qanuni silahlı birləşmələrin fəaliyyətinin nəticələrinin təhlili öz əksini tapıb və Qarabağdakı vəziyyətlə maraqlı paralellərin aparılması mümkündür.

Qarabağ bu qanunsuz silahlı birləşmələrdən nə qədər tez azad edilərsə, orada sabitlik bir o qədər tez olar. Və qeyd etməyə bilmərəm ki, Azərbaycan bu vəzifənin öhdəsindən çoxdan gələrdi.

**- Sizcə, Qarabağın azərbaycanlı əhalisinin vətənə qayıtması nə vaxt və ya hansı hadisədən sonra başlaya bilər? Rusiya sülhməramlıları bu prosesə kömək edə bilərmi?**

- Mən bu suala yalnız Qarabağa səfər edib orada monitorinq apardıqdan sonra ən azı ekspert sorğusu şəklində cavab verə biləcəyəm. Mən yalnız sahə tədqiqatlarını tanıyıram- həmkarlarımın fikrinə çox hörmət edirəm, həmişə nəzərə alıram, amma problemi öyrənib nəticə çıxarmağı xoşlayıram.

Mən belə bir səfər planlaşdırıram. Düşünürəm ki, Azərbaycan hakimiyyəti mənə mümkün köməklik göstərəcək və əlbəttə ki, müdaxilə etməyəcək. Qarabağ Azərbaycanın ərazisi olub və qalır və təbii ki, mən belə bir araşdırmanın aparılmasını Azərbaycan tərəfi ilə razılaşdıracağam.

Təbii ki, biz istəyirik ki, Azərbaycan əhalisinin öz evlərinə qayıtması tez bir zamanda başlansın. Üstəlik, Qarabağın iqtisadi və mədəni inkişafı üçün də peşəkar kadr axınına ehtiyac var. Bu torpaq artıq böyük bir qədəh iztirab içib. Qarabağ gəmisi tamamilə öz doğma limanına qayıdıb.

***Tərcümə - Elçin Bayramlı***



Səs
17 dekabr
2022-ci il



# “Valideyn bunları etməklə uşağın şüur inkişafını zədələyir”

***“Elə valideynlər var ki, övladlarından giley edib, psixoloqa yönləndirirlər. Məsələnin sonunda isə özləri günahkar çıxırlar. Bunun da səbəbi valideynlərin övladlarına laqeyd yanaşmasıdır". Bu fikirləri SİA-ya açıqlamasında psixoloq Aytən Ələkbərova səsləndirib.***

Onun sözlərinə görə, əgər valideyn övladından dəyər görmək istəyirsə, mütləq özü də övladına dəyər verməlidir: ”Çünki müxtəlif yaş dövründə övladın daha çox valideynə ehtiyacı olur, nəinki valideynin hər hansı bir istiqamətə yönəltməyinə. Övladımızı istədiyimiz istiqamətə yönəldib ondan müsbət cavab almaqdan ötrü təbii ki, biz ilk öncə ona vaxt ayırmalıyıq. Biz bilirik ki, 3 yaşdan 7 yaşa qədər şüurun inkişaf prosesi gedir. Bu yaş aralığında övladımızın şüurunda doğan suallar övladımızın inkişafında birbaşa öz təsirini göstərməyə başlayır. Əgər həmin zamanımızı da sosial şəbəkələrdə keçiririksə, deməli, gələcəkdə övladlarımızın da bizə ayıracağı vaxtının olmaması normaldır”.

Psixoloq sözlərinə davam edərək qeyd edib ki, biz valideynlərin bu cür laqeydsizliyi uşaqların altşüurunda travma olaraq qalır: ”Övladlar valideynlərini örnək götürdükləri üçün gələcəkdə onlar ziyalı, şüurlu düşüncəni bir kənara qoyaraq yalnız ata-analarının davranışlarını əsas istiqamət olaraq götürəcəklər. Əgər valideyn sosial şəbəkələrdə kimləsə ağız dalaşına girirsə, kimisə təhqir edirsə, uşaq da böyüdükdə bunu normal hərəkət kimi qəbul edəcək. Düşünəcək ki, onlara heç kim heç nə demirsə, demək ki, bunu etməkdə problem yoxdur. Biz bunları etməklə övladımızda qeybətə meyillilik yaradır və şüur inkişafını zədələyirik. Bütün bunlardan sonra övladımız yanlış addımlar atdıqda biz onu yox, birbaşa özümüzü qınamalıyıq. Odur ki, dəyər görmək üçün övladımıza dəyər verməli, vaxt ayırmalıyıq”.

***Ləman Əlizadə***



# FİFA dünya çempionatının yeni formatını açıqladı

FİFA prezidenti Canni İnfantino 2025-ci ildən etibarən klublararası dünya çempionatının formatında dəyişiklik ediləcəyini açıqlayıb. Qol.az xəbər verir ki, o, bu haqda keçirdiyi mətbuat konfransında bildirib. Qurum rəsmisi qeyd edib ki, 2025-ci ildə kişilər arasında klublar arasında dünya çempionatı yeni formatda keçiriləcək. Turnirdə 32 komanda iştirak edəcək. ”Biz bu çempionatı milli komandaların iştirakı ilə keçirilən Dünya Kuboku yarışına bənzətmək istəyirik”, - deyə İnfantino bildirib.

Qeyd edək ki, hazırda klublararası dünya çempionatı cəmi 6 komandanın iştirakı ilə təşkil olunur. Bunlar 5 kontinental yarışın qalibi və təşkilatçı ölkənin təmsilçisidir. FİFA həmçinin müxtəlif futbol konfederasiyalarından dörd komandanın iştirak edəcəyi Dünya Seriyası adlı dostluq turnirinin yaradıldığını da elan edib. Bundan əlavə, FİFA prezidenti qadınlar arasında klublararası dünya çempionatının da keçiriləcəyini deyib.

# Bərbərxanada 28 yaşlı gənc qətlə yetirilib



Bakıda bərbərxanada 28 yaşlı gənc qətlə yetirilib. Bu barədə SİA-ya Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətindən məlumat verilib. Bildirilib ki, bu gün saat 13 radələrində Nəsimi rayonunda bıçaqlama hadisəsi ilə bağlı polisə məlumat daxil olub.

Belə ki, rayonun Asif Məhərrəmov küçəsində yerləşən bərbərxanaların birində bərbər işləyən 1994-cü il təvəllüdlü İsmət Qədirov münaqişə zəminində 1994-cü il təvəllüdlü İlkin Qurbanlıya bıçaqla müxtəlif dərəcəli bıçaq xəsarətləri yetirməklə onu qətlə yetirib. Polisin keçirdiyi tədbirlərlə cinayət əməlini törətməkdə şübhəli bilinən İ.Qədirov saxlanılaraq istintaqa təhvil verilib

# Rus diyetoloq: ”Ətdən imtina arzuolunmaz fəsadlar yaradır”



***Ətdən imtina etmək qərarına gələn insanlarda zaman keçdikcə dəmir çatışmazlığı inkişaf edir, çünki rasionda məhz ət onun əsas mənbəyidir. Bu proses qanazlığı ilə nəticələnə bilər. Diyetoloq Yelena Tixomirovanın sözlərinə görə, insan ətdən imtina etmək qərarına gələndə zaman keçdikcə çox ləng şəkildə inkişaf edən dəmir çatışmazlığı yaranır. "MedikForum"un yazdığına görə, tədricən bu vəziyyət qanazlığına keçir ki, bu halda eritrositdə hemoqlobinin ümumi konsentrasiyası azalır, serum dəmiri və ferritin azalır.***

Diyetoloq xəbərdarlıq edib ki, dəmir çatışmazlığı anemiyası arzuolunmaz nəticələrə gətirə bilər. Bu problemi olan insanlar güclü yorğunluq, zəiflikdən əziyyət çəkir, beyin fəaliyyəti zəifləyir, əzələ toxumasının tonusu azalır. Mövcud olan anemiyada orqanizm kifayət qədər oksigen almır.

Eyni zamanda, həkim qeyd edib ki, ətdən qısamüddətli imtina sağlamlığa zərbə vurmayacaq. Yağlı qırmızı ətin ümumilikdə yalnız az miqdarda istehlak edilməsi tövsiyə olunur, rasionda diyetik ət növləri üstünlük təşkil etməlidir. Bundan başqa, əlavə məhsullar faydalıdır - bunlar nevroloji sağlamlıq üçün çox vacib olan B qrupu vitaminlərinin zəngin mənbəyidir.

# Qış aylarında necə qidalanmaq lazımdır ?

“Qış aylarında insanlar ilk növbədə mövsümi meyvələrə üstünlük verməlidirlər. Lakin bu meyvələrin də yerli və orqanik olmasına diqqət etmək lazımdır. Vitamin və mineral deposu olan meyvələr bütün yaş qrupundan olan insanlar üçün vacibdir. Xüsusilə də, yaşlılar və uşaqların immun sisteminin zəif olması səbəbilə onlar bu məsələdə daha diqqətli olmalıdırlar. İkinci növbədə, mövsümi meyvələrin şirələrinin istehlak olunması da olduqca xeyirlidir. Çünki onlar liflərlə zəngin olur, eyni zamanda, rəngli və qazlı içkilərdən daha üstündür ki, insan orqanizmində heç bir fəsadlara yol açmır”. Bu sözləri SİA-ya açıqlamasında qida üzrə baş mütəxəssis Ağa Salamov bildirib.

Onun sözlərinə görə, həftədə ən azı iki dəfə balıq yemək də mütləqdir və bu balıqlar da yerli olmalıdırlar: ”İnsanlar çox zaman xaricdən gələn balıqlara üstünlük verirlər, lakin onlar süni şəkildə yetişdirilmiş balıqlar olduğu üçün tərkiblərində olan yağ turşuları da onlarda zəif olur. Həftədə iki dəfə balıq yeyildiyi kimi, həftədə iki dəfə də qırmızı ət yeyilməlidir. Qırmızı ət B12 deposudur və qırmızı ətdən imtina etmək olmaz”.



***Səbinə Hüseynli***

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
**Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3600**